

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP nümayəndə heyəti Çinə səfər edib



8

SƏS

№ 094 (6777)

31 may 2023-cü il.
Qiymәti 60 qәpik

# İlham Əliyev: "Azərbaycandakı yəhudi icması ölkəmiz üçün böyük sərvətdir"



6

Prezident İlham Əliyev ölkəmizə səfərə gələn İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ilə görüşüb

# Biabırçılığın zirvəsi



11

## Özünüməşğulluqdan sahibkarlığa...



12

## Pulla alınan ölüm



14

## Bir axşam taksidən düşüb




15



## Əsir düşərgəsi

15

## Bağ evlərinin qiyməti artıb?



16

# Qarabağ bölgəsinin yüksəlişinin təminatçısı -

# Qalib Lider!

## İLHAM ƏLİYEV: "Bu gün müstəqil Azərbaycan dövləti istənilən nəticəni əldə etməyə qadirdir"







**Bəli, artıq İkinci Vətən müharibəsinin qələbəsindən iki il ötür. İki il böyük zaman kəsiyi deyil. Lakin bu qısa müddətdə Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinin miqyası olduqca möhtəşəm və genişdir. Görünən odur ki, cəmi 44 günə torpaqlarımızı azad edən Prezident İlham Əliyev ermənilərin viran qoyduğu yurd yerlərimizi sürətlə cənnətə çevirir. Öz doğma yerlərinə qayıdacaq vətəndaşlarımız üçün indi ən mükəmməl həyat şəraiti yaradılır. Bütün bu uğurlar isə, məhz müstəqilliyimizin möhkəm olmasının nəticəsidir.**

Prezident İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşündə söyləyib ki, bu görüşün 28 May tarixində təşkil edilməsinin böyük rəmzi mənası olduğunu vurğulayan dövlətimizin başçısı deyib: ”Bu gün müstəqil Azərbaycan dövləti həm dünya miqyasında öz mövqelərini kifayət qədər möhkəmləndirib, eyni zamanda, bu gün müstəqil Azərbaycan dövləti istənilən nəticəni əldə etməyə qadirdir”.

### SİYASİ İRADƏNİN GÖSTƏRİCİSİ

Müzəffər Ali Baş Komandan İlham Əliyev azad olunmuş ərazilərin bərpası ilə bağlı göstərişlərini hələ Vətən müharibəsinin davam etdiyi günlərdə vermiş, ilk olaraq azad olunmuş Suqovuşana aparan yolların bərpasına başlanılmışdı. Qələbə ilə başa vurduğumuz müharibədən dərhal sonra öncə infrastrukturların bərpası olmaqla, kompleks quruculuq işlərinə start verilmişdi. Azad olunmuş ərazilərdə yolların yenidən qurulması, dayanıqlı enerji təchizatının təmin olunması, o cümlədən Şuşa şəhərinin bərpası istiqamətində layihələrin icrasına başlanılmışdı.

Bəli, bu gün Qalib Liderimiz, Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfəri zamanı dediyi ”Qarabağda cənnət yaradacağıq” vədi sözü ilə əməlin bir olmasının göstəricisidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün sözləri, vədləri yerinə yetirib. Necə ki, ”Qarabağ Azərbaycandır və nida işarəsi” deyən dövlətimizin başçısı sözlərinə sadiq qalaraq Ermənistanın faşizm siyasətini məhv etdi, Qarabağı işğaldan azad etd, hazırda da ”Qarabağda cənnət yaradacağıq” vədini addım-addım yerinə yetirməkdədir. Bir sözlə, bu gün artıq Azərbaycan Respublikasının Prezidenti azad nəfəsalan torpaqlarımızı gəzir, Qarabağın cənnətə çevrilməsi üçün tapşırıqlarını verir, işlərə nəzarət edir, yeni layihələrin həyata keçirilməsi yollarını arayıb-axtarır və bu sahədə əməli tədbirlər görür. Azərbaycan xalqı da öz Prezidentinə inanır və güvənir və əmindir ki, qısa zaman çərçivəsində işğaldan azad olunmuş ərazilər bərpa ediləcək, böyük qayıdış başlayacaq və artıq bu gün soydaşlarımız işğaldan azad olunmuş torpaqlara, dədə-baba yurdlarına qayıdır. Bu Qarabağ bölgəsinin yüksəlişinin təminatçısı Qalib Liderimiz, Prezident İlham Əliyev cənablarının qətiyyətli, diplomatik uğurlu siyasətinin nəticəsidir.

Elə mayın 27-28-də Prezident İlham Əliyevin Kəlbəcər və Laçın rayonlarına səfəri, səfər çərçivəsində bir sox obyektlərin açılış və təməlqoyma mərasimlərində iştirakı, Laçın şəhərinə qayıdan əhali ilə görüşü, onlara evlərin açarlarını təqdim edilməsi arzusunda və intizarında olduğumuz ”Böyük Qayıdış” konsepsiyası inamla gerçəkləşdiyinin reallığıdır.

### BU GÜN MÜSTƏQİLLİYİMİZ MÖHKƏMDİR VƏ BUNUN NƏTİCƏSİNDƏ BİZ İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ QƏLƏBƏ QAZANDIQ. BUNUN NƏTİCƏSİNDƏ BU GÜN BİZ BURADAYIQ.

Bəli, bunun səbəbi müstəqilliyimizin möhkəm olmasıdır ki, İkinci Qarabağ müharibəsində qələbə qazandıq. Bu Qələbəmiz tarixi Qələbədir və tarixi ədaləti bərpa etdik. Dövlət başçımızın dediyi kimi: ”Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!.

Bəli, məhz müstəqilliyimizin möhkəm olmasının nəticəsidir ki, bu gün qaçqınlarımız öz doğma yurdlarına qayıdırlar. Dövlətimizin başçısı Laçın şəhərinə qayıdan əhali ilə görüşü zamanı bildirdi ki, bu görüşün 28 May tarixində təşkil edilməsinin böyük rəmzi mənası olduğunu vurğulayan dövlətimizin başçısı deyib: ”Bu gün müstəqil Azərbaycan dövləti həm dünya miqyasında öz mövqelərini kifayət qədər möhkəmləndirib, eyni zamanda, bu gün müstəqil Azərbaycan dövləti istənilən nəticəni əldə etməyə qadirdir”.

*Ardı Səh. 3*

## Qarabağ bölgəsinin yüksəlişinin təminatçısı -

# Qalib Lider!

### İLHAM ƏLİYEV: "Bu gün müstəqil Azərbaycan dövləti istənilən nəticəni əldə etməyə qadirdir"



Əvvəli Səh. 2

Dövlətimizin başçısı görüş zamanı onu da bildirib ki, bu gün Laçın şəhərinin sakinləri uzun fasilədən sonra öz doğma şəhərinə qayıdıblar və bu məhz müstəqilliyimizin möhkəmlənməsinə bağlıdır.

### BİZ ÖZ DOĞMA TORPAQLARIMIZI İŞĞALÇILARDAN AZAD EDƏNDƏN SONRA MƏN DEMİŞDİM Kİ, QARABAĞI VƏ ŞƏRQİ ZƏNGƏZURU CƏNNƏTƏ ÇEVİRƏCƏYİK

"Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsu",-deyən dövlətimizin başçısı vurğulayıb ki, cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey çox böyük











zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun: "Biz bu ilin sentyabr ayına qədər Zabux kəndini də tamamilə inşa edib zabuxluların sərəncamına verəcəyik".

Zabux və Sus kəndlərinin Laçın şəhəri ilə eyni gündə işğalçılardan azad edildiyini xatırladan dövlətimizin başçısı deyib ki, orada da fəal iş aparılır: "Beləliklə, həm Laçın rayonunda, həm bütün başqa rayonlarda biz ildən-ilə daha da böyük işlər görməklə öz vətəndaşlarımızı normal şəraitlə təmin edəcəyik".

Prezident İlham Əliyev Laçının azad olunmasının və bu gün keçirdiyimiz görüşün tarixlərinin rəmzi mənası olduğunu deyən dövlətimizin başçısı bildirib: "May ayında Laçın işğal altına düşdü, may ayında laçınlılar Laçına qayıtdılar. Düzdür, 31 ildən sonra, amma biz qayıtmışıq". Hakimiyyətə can atmış və hakimiyyəti zəbt etmiş qüvvələrin xəyanəti nəticəsində 1993-cü ilin aprelində Kəlbəcərin işğal altına düşdüyünü vurğulayan dövlətimizin başçısı bildirib: "Aprel ayında biz Azərbaycan-Ermənistan sərhədinin Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsini quraraq öz ərazi bütövlüyümüzü tam bərpa etdik. Yəni, bu tarixlər arasında bağlılıq var".

### ULU ÖNDƏR PREZİDENT SEÇİLƏNDƏN SONRA BU GÜNƏ QƏDƏR AZƏRBAYCAN SABİTLİK MƏKANI KİMİ, DÜNYADA NÜMUNƏVİ ÖLKƏ KİMİ ÖZÜNÜ TƏSDİQLƏYİB

Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə deyib ki, bu ay biz Ulu Öndər Heydər Əliyevin 100 illiyini qeyd etmişik və ilin sonuna qədər tədbirlər davam edəcək: "Məhz onun Azərbaycan rəhbərliyinə gəlməsindən sonra Azərbaycan ayağa qalxa bildi, Azərbaycan inkişaf yoluna qədəm qoya bildi, vətəndaş müharibəsinə son qoyuldu. 1993-cü ilin oktyabr ayından - o, prezident vəzifəsinə seçiləndən sonra bu günə qədər Azərbaycan sabitlik məkanı kimi, dünyada nümunəvi ölkə kimi özünü təsdiqləyib. O vaxt isə vəziyyət tam fərqli idi. Laçın, Kəlbəcər və Şuşa işğal olunandan sonra təbii ki, erməni silahlı qüvvələri böyük strateji - hərbi üstünlük əldə etmişlər və digər torpaqlarımızı da işğal edə bilmişlər".

Bəli, Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən cənab Prezident İlham Əliyev ilk dəfə 2003-cü ilin 15 oktyabr tarixində keçirilmiş seçkilərdə Azərbaycan xalqı İlham Əliyevi Prezident seçməklə Ulu Öndər Heydər Əliyev siyasətinin davam etdirilməsinə və ölkədə sabitliyin qorunmasına səs verməklə, Ümummilli Liderə sevgisini və inamını bir daha sübut etdi. Məhz bu gün əldə Prezident İlham Əliyevin yürütdüyü siyasət bir daha göstərir ki, bu siyasətə alternativ yoxdur. Və 30 il davam edən işğala, məhz Ali Baş Komandan, Qalib Lider, Prezident İlham Əliyev "Dəmir Yumruq" siyasəti ilə Güclü Ordumuzun qəhrəman əsgər və zabitlərin rəşadəti ilə 44 gün tam bəs etdi və Qələbə Zəfərinə nail oldu. Və bu gün işğaldan azad olunmuş torpaqlara qələbə səfəri və səfər çərçivəsində görülən işlər dünya dövlətlərinin 10 ildə görə bilmədikləri işləri Azərbaycan Prezidenti bu iki il ərzində həyata keçirib. Belə ki, dövlətimizin başçısı Laçın şəhərinə qayıdan əhali ilə görüşü zamanı söülədiyi rəqəmlər deyilənlərin göstəricisidir: "Məhz bu gün müstəqilliyimizin möhkəmlənməsinin nəticəsidir ki, cəmi 7-8 ay ərzində şəhərin böyük hissəsi tamamilə yenidən qurulub və sizin sərəncamınıza verilir. İlk 20 ailə artıq dünəndən Laçında yerləşibdir və iyun ayının sonuna qədər əlavə bir çox ailələr gələcək. Beləliklə, birinci mərhələdə Laçında 4 minə yaxın, bəlkə də çox insan yaşayacaqdır. Bütövlükdə 7-8 ay ərzində 700 bina inşa edilib, onlardan 620-si fərdi yaşayış binası, 9 çoxmənzilli bina və orada 144 mənzil hazırlanıbdır. Beləliklə, artıq 764 ailə Laçın şəhərində yaşaya bilər.

### BU GÜN MÜZƏFFƏR AZƏRBAYCAN ORDUSUNUN QƏHRƏMANLIĞI SAYƏSİNDƏ BİZ BUNA NAİL OLMUŞUQ. BİZ DÜŞMƏNİ DÖYÜŞ MEYDANINDA MƏĞLUB ETMİŞİK

"Siz də, bütün Azərbaycan xalqı da, bütün dünya ictimaiyyəti də yaxşı bilirdi və bilir ki, Ermənistan bizim torpaqlarımızdan öz xoşu ilə çıxmaq istəmirdi, işğal edilmiş torpaqlardan çıxmaq istəmirdi". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə söyləyib.

Ermənistanın, sadəcə olaraq, görüntü naminə, beynəlxalq vasitəçiləri aldatmaq, beynəlxalq ictimaiyyəti çaşdırmaq üçün beş rayonu qaytarmağa hazırdır olduqları, Laçın və Kəlbəcərin isə onların əlində həmişəlik qalması ilə bağlı təklif irəli sürdüyünü xatırladan dövlətimizin başçısı qeyd edib: "Biz isə heç vaxt bununla razılaşa bilməzdik. Mən hər zaman deyirdim ki, ərazi bütövlüyümüz tam bərpa edilməlidir. Bu gün müzəffər Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində biz buna nail olmuşuq. Biz düşməni döyüş meydanında məğlub etmişik".

Bəli, bu qələbə güclü ordumuzun və qəhrəman əsgər və zabitlərimizin rəşadəti ilə əldə olunub. Prezident İlham Əliyev laçınlılarla görüşdə torpaqlarımızı azad edən gənclərin qəhrəmanlığından danışaraq bildirib: "Güclü ordu qurmuşuq. Bu ordu düşməni 44 gün ərzində darmadağın edib, onları diz çökdürüb və torpaqlarımızdan qovub".

"Gözəl gənc nəsil yetişdirdik - vətənpərvər, tərbiyəli, milli ruhda tərbiyə almış gənc nəsil. Həmin bu gənclər bizim torpaqlarımızı azad ediblər", - söyləyən dövlətimizin başçısı qeyd edib ki, Laçını, Kəlbəcəri, o vaxt işğal altında olan digər torpaqları görməyən, bu bölgələrdən olan gənclər ölümə getməyə hazır idilər, ölümə də gedirdilər. Allahdan bütün şəhidlərimizə rəhmət diləyən Prezident İlham Əliyev onların qəhrəmanlığının heç vaxt unutmayacağını bildirərək deyib: "Onların qəhrəmanlığı, şücaəti sayəsində biz, bax, bu gün burada oturmuşuq və bu gün bu torpaqlarda həyat canlanır".

### BU GÜN AZƏRBAYCANLA HESABLAŞIRLAR

"Bu gün dünya miqyasında nadir ölkələrdənik ki, iqtisadi cəhətdən tam müstəqilik",- deyən Prezident İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə bildirib. "Siyasi gücümüzü artırdıq, bu gün Azərbaycanla hesablaşırlar. Ən azı regional təhlükəsizlik və inkişaf məsələlərində Azərbaycanın razılığı olmadan heç bir təşəbbüs həyata keçirilə bilməz. Deyirəm, ən azı regional, amma, eyni zamanda, bu gün dünya miqyasında bir çox məsələlərdə Azərbaycanın mövqeyi önəmli mövqe kimi sayılır", - deyə dövlətimizin başçısı qeyd edib. Çünki bu gün diktə edən tərəf qalib Azərbaycandır, Qalib Lider Prezident İlham Əliyev cənablarıdır: "Mənim sözüm qətidir, bunu hər kəs bilir, həm Azərbaycanda, həm dünyada, o cümlədən Ermənistanda. Nəyi deyiriksə, onu da edirik. Bir dənə də olsun sözümüz, necə deyərlər, havada qalmayıb, bu söz də havada qalmayacaq. Əgər mən deyirəmsə ki, amnistiyaya baxmaq olar, bu fürsəti də qaçırmasınlar. Onlar bir çox fürsətləri qaçırıblar, bir çox fürsətləri və hər dəfə, necə deyərlər, gərək onların başından vuraydıq ki, özlərinə gəlsinlər".

**RƏFİQƏ KAMALQIZI**

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Türkiyə Prezidentini və xanımını təbrik edib




***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva instaqram hesabında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın prezident seçkilərində əldə etdiyi qələbə ilə bağlı paylaşım edib.***

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Cənab Rəcəb Tayyib Ərdoğanı və əziz bacım Əminə xanımı qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Qoy xalqlarımızın qardaşlığı əbədi və sarsılmaz olsun! Bütün Türkiyə xalqına möhkəm cansağlığı, xoşbəxtlik və sülh arzu edirəm. Uca Allah Azərbaycanı və Türkiyəni qorusun!".

# Azərbaycan dünyanın mötəbər idman yarışlarına uğurla ev sahibliyi edir

## Prezident İlham Əliyev Dünya Taekvondo Federasiyasının prezidentini və Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidentini qəbul edib



**Prezident İlham Əliyev mayın 29-da Dünya Taekvondo Federasiyasının prezidenti Çunqvon Çunu və Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti Ser Mianq Nqni qəbul edib. Dövlətimizin başçısı Çunqvon Çu ilə görüşlərini məmnunluqla xatırlayaraq, Dünya Taekvondo Federasiyasının 50 illiyi münasibətilə təbriklərini çatdırdı. Görüşdə taekvondo üzrə 26-cı dünya çempionatının Bakıda keçirilməsinin önəmi vurğulandı.**

Çunqvon Çu bu tədbirin yüksək səviyyədə təşkil olunduğunu məmnunluqla bildirərək qeyd etdi ki, 144 ölkənin nümayəndəsinin iştirakı ilə keçirilən bu idman yarışı taekvondo tarixində ən böyük çempionatdır. Qonaq bu çempionatın Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinin qeyd olunduğu dövrə təsadüf etməsinin rəmzi məna daşıdığını vurğuladı.

Çunqvon Çu rəhbərlik etdiyi federasiyanın Azərbaycan Taekvondo Federasiyası ilə uzun illər uğurlu əməkdaşlıq həyata keçirdiyini dedi. Söhbət zamanı Azərbaycanda idmanın inkişafına yüksək dövlət qayğısının göstərildiyi qeyd olundu, ölkəmizin dünyanın mötəbər idman yarışlarına uğurla ev sahibliyi etməsinin əhəmiyyəti bildirildi.

Dövlətimizin başçısı Bakı ilə yanaşı, rayonlarımızda da müasir idman komplekslərinin fəaliyyət göstərdiyini dedi, işğaldan azad edilmiş ərazilərimizdə də geniş idman infrastrukturunun yaradılacağını vurğuladı. Görüşdə ölkəmizdə taekvondoya olan maraq qeyd edildi, 2016-cı ildə Rio-de-Janeyroda keçirilən Olimpiya Oyunlarında idmançımızın qızıl medal qazandığı xatırlandı.

# "Xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələri böyük tarixə malikdir"

## Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstanın ölkəmizdə yeni təyin olunan səfirinin etimadnaməsini qəbul edib



**Prezident İlham Əliyev mayın 29-da Qazaxıstan Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Alim Bayelin etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında fəal əməkdaşlığın həyata keçirildiyini bildirdi, bu baxımdan özünün Qazaxıstana, Qazaxıstan Prezidentinin isə Azərbaycana səfərinin əlaqələrimizin genişlənməsi işinə təkan verdiyini vurğuladı.**

Prezident İlham Əliyev xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrinin böyük tarixə malik olduğunu qeyd etdi, hər zaman qarşılıqlı dəstəyin nümayiş etdirildiyini bildirdi. Bu gün bu amilin Xəzər dənizi hövzəsində və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi üçün böyük önəm daşıdığını dedi.

Dövlətimizin başçısı hazırda Azərbaycanla Qazaxıstan arasında ticarət dövriyyəsinin və daşımalarının həcminin artırılması istiqamətində fəal danışıqların getdiyini qeyd edərək, nəqliyyat-logistika sahəsinin iqtisadi əlaqələrimizin əsas istiqamətlərindən biri olduğunu dedi və həyata keçirilən birgə infrastruktur layihələrinin yükdaşımaların həcminin genişlənməsi üçün yaxşı imkan yaratdığını vurğuladı. Azərbaycan Prezidenti, eyni zamanda, gəmiqayırma müəssisələrinin imkanlarından da istifadə olunmasının önəmini qeyd etdi. Dövlətimizin başçısı bir müddət bundan əvvəldən başlayaraq Qazaxıstandan neftin Azərbaycan ərazisindən nəql olunmasının əhəmiyyətini vurğuladı və bunun energetika sahəsində əməkdaşlığı genişləndirmək işinə mühüm töhfə verdiyini dedi. Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Azərbaycanda səfir təyin olunmasından şərəf hissi duyduğunu bildirən Alim Bayel ikitərəfli münasibətlərin bundan sonra da inkişaf etdirilməsində səylərini əsirgəməyəcəyini qeyd etdi. Səfir Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı ehtiramını ifadə edərək, Müstəqilik Günü münasibətilə dövlətimizin başçısını və Azərbaycan xalqını təbrik etdi.

# Prezident İlham Əliyev Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisini qəbul edib



**Prezident İlham Əliyev mayın 29-da Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul edib. Baronessa Emma Nikolson Bakı Enerji Həftəsi ilə bağlı Böyük Britaniyanın Baş naziri Rişi Sunakın məktubunu dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyev məktuba görə minnətdarlığını bildirdi.**

Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi qeyd olundu, energetika, neft-qaz sektorunda əməkdaşlığa toxunuldu, uzun illər Azərbaycan ilə BP arasında səmərəli əməkdaşlığın həyata keçirildiyi vurğulandı, bu xüsusda Cənub Qaz Dəhlizinin icrasının önəmi qeyd edildi.

Görüşdə Baronessa Emma Nikolsonun Bakı Enerji Həftəsində iştirak edəcəyi məmnunluqla vurğulandı. Söhbət zamanı ticarət, kiçik və orta biznes, sosial layihələrin həyata keçirilməsi, humanitar əlaqələr, qadın hüquqlarının qorunması sahəsində təcrübə mübadiləsi və digər məsələlər müzakirə olundu.

# Ölkəmiz dünya miqyasında nüfuzlu idman ölkəsi kimi tanınır!

## Bakıda taekvondo üzrə 26-cı dünya çempionatının açılış mərasimi keçirilib, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimini izləyiblər

**Mayın 29-da Bakıda taekvondo üzrə 26-cı dünya çempionatının açılış mərasimi olub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbiri izləyiblər. Əvvəlcə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Dünya Taekvondo Federasiyasının prezidenti Çunqvon Çu ilə görüşdülər. Çunqvon Çu birinci xanım Mehriban Əliyevaya 8-ci dan Fəxri Qara kəmər və sertifikatını təqdim etdi.**



Dövlətimizin başçısı və birinci xanım Dünya Taekvondo Federasiyasının prezidenti ilə söhbət etdilər. Sonra taekvondo üzrə 26-cı dünya çempionatının açılış mərasimi keçirildi. Açılış mərasimində əvvəlcə iştirakçı komandaların paradı oldu. Sonra Dünya Taekvondo Federasiyasının himninin sədaları altında qurumun bayrağı səhnəyə gətirildi. Daha sonra Azərbaycan Respublikasının Dövlət Bayrağı səhnəyə gətirildi və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra hakimlər, idmançılar və məşqçilərin andiçmə mərasimi oldu. Bu andlar bütün iştirakçılara və tamaşaçılara sağlam rəqabət, ədalətli hakimlik və idmanda ədalət prinsipinə və ideallarına riayət edilməsinin ən yüksək prioritet olduğunu bir daha xatırladıb.

Mərasimdə çıxış edən Dünya Taekvondo Federasiyasının prezidenti Çunqvon Çu Bakıda olmaqdan və dünya çempionatının Azərbaycanda keçirilməsindən məmnunluğunu bildirdi. Pandemiyadan sonra taekvondo yarışlarının keçirilməsinin önəmini xüsusi vurğulayan Çunqvon Çu dedi: "Bakıya - taekvondonun evinə qayıtmaq çox xoşdur. Bakını taekvondonun evi adlandırmaq ona görədir ki, uzun illər ərzində Azərbaycanda müxtəlif taekvondo tədbirləri təşkil olunub. Azərbaycan, həmçinin parataekvondonun yarandığı ölkədir. Sonralar parataekvondo daha da populyarlaşaraq Paralimpiya Oyunlarının proqramına salınıb".












Azərbaycan Prezidenti İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğı nəticəsində taekvondonun ölkəmizdə geniş populyarlıq qazandığını vurğulayan Çunqvon Çu bildirdi ki, bu diqqət nəticəsində illər ərzində Azərbaycan taekvondoçuları müxtəlif yarışlarda medallar qazanıblar. Prezident İlham Əliyevin Dünya Taekvondosunun 6-cı dan Fəxri Qara kəmər və sertifikatı ilə təltif olunduğunu xatırladan Çunqvon Çu Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da 8-ci dan Fəxri Qara kəmər və sertifikatı ilə təltif edilməsindən məmnunluğunu ifadə etdi. O, Bakıda keçirilən 26-cı dünya çempionatının tarixdə uğurlu və mötəbər tədbir kimi qalacağına ümidvar olduğunu bildirdi.

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax videomüraciətində 50 il əvvəl 17 üzv assosiasiya ilə fəaliyyətə başlayan Dünya Taekvondo Federasiyasının hazırda 213 üzvü əhatə edərək dünyanın ən böyük idman federasiyalarından birinə çevrildiyini dedi. Taekvondonun 2000-ci ildən Olimpiya idman növü olduğunu vurğulayan T.Bax qurumun ötən müddətdə Çunqvon Çunun rəhbərliyi ilə sürətli inkişaf yolu keçərək, həm taekvondonu, həm də idman dəyərlərini müvəffəqiyyətlə təbliğ etdiyini bildirdi. O, Taekvondo Humanitar Fondunun da dünyada qaçqınların idmana cəlb olunmasında mühüm rol oynadığını dedi, federasiyanın Beynəlxalq Olimpiya Komitəsi ilə birlikdə Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə sanballı töhfələr verdiyini diqqətə çatdırdı.

Azərbaycan Taekvondo Federasiyasının prezidenti Kəmaləddin Heydərov çıxışında taekvondoçularımızın mötəbər beynəlxalq yarışlarda uğurlu çıxışları, iradə və əzmkarlıqları ilə zirvələri fəth etdiklərini vurğuladı. Qeyd etdi ki, məhz bunun nəticəsində taekvondo respublikamızda geniş populyarlıq qazanıb və gənclərimizdə idmanın bu növünə dərin maraq yaranıb.

K.Heydərov 100 illik yubileyinin geniş qeyd olunduğu Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə idmana daim yüksək diqqət və qayğı göstərdiyini xatırlatdı. Bildirdi ki, bu siyasəti uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində ölkəmizdə 50-yə yaxın Olimpiya İdman Kompleksi inşa olunub. Hazırda Azərbaycan beynəlxalq idman aləmində nüfuzlu idman ölkəsi kimi tanınır. Azərbaycanda irimiqyaslı yarışların təşkilinin artıq ənənəyə çevrildiyini, ölkəmizin dünya, Avropa çempionatlarına, I Avropa və IV İslam Həmrəyliyi oyunlarına uğurla ev sahibliyi etdiyini vurğulayan federasiya prezidenti dünya çempionatının təşkilini və Dünya Taekvondosunun 50 illiyinin qeyd olunmasını Azərbaycana həvalə etdiyi üçün Dünya Taekvondo Federasiyasının rəhbərliyinə təşəkkürünü bildirdi. O, həm iştirakçı ölkələrin, həm də idmançıların sayına görə rekord göstəricinin qeydə alındığı bu çempionatın Bakıda keçirilməsinin taekvondonun Azərbaycanda təbliği işinə böyük təkan verəcəyini dedi.

Sonra Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov taekvondo üzrə 26-cı dünya çempionatını açıq elan etdi. Açılış mərasimində Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti, Ümummilli Liderin, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın ölkəmizdə idmanın inkişafına diqqət və qayğısını əks etdirən film nümayiş olundu. Dünya çempionatının açılış mərasimi bədii hissə ilə davam edib.

Qeyd edək ki, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə və Dünya Taekvondo Federasiyasının 50 illiyinə təsadüf edən çempionat "Öz gücünü alovlandır" şüarı altında təşkil olunub. İyunun 4-dək "Baku Crystal Hall"da keçiriləcək 26-cı dünya çempionatında 145 ölkədən 949 taekvondoçu 16 çəki dərəcəsində mübarizəyə qoşulub. Dünya çempionu olacaq idmançı aktivinə 140 reytinq xalı əlavə edəcək.

# İlham Əliyev: “Azərbaycandakı yəhudi icması ölkəmiz üçün böyük sərvətdir”

## Prezident İlham Əliyev ölkəmizə səfərə gələn İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ilə görüşüb

***Azərbaycana rəsmi səfərə gələn İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun mayın 30-da rəsmi qarşılanma mərasimi olub. hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda İsrail Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.***

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsrail Dövlətinin Prezidenti İsxak Hersoqu və birinci xanım Mixal Hersoqu qarşılayıblar. Daha sonra Azərbaycan Prezidenti İlham Əliyevin İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ilə təkbətək görüşü olub. Görüşdə Azərbaycanla İsrail arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olunub, İsxak Hersoqun ölkəmizə səfərinin əlaqələrimizin genişlənməsi işinə töhfə verəcəyi vurğulanıb. Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun geniş tərkibdə görüşü keçirilib.

Dünən həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun iştirakı ilə ”Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İsrail Dövlətinin Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahələrində 2023-2028-ci illər üçün Əməkdaşlıq Planı” imzalanıb. Sənədi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev və İsrail Dövlətinin daxili işlər və səhiyyə naziri Moşe Arbel imzalayıblar. Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İsrail Dövlətinin Prezidenti İsxak Hersoq mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış edib.



### İsrail Prezidenti:

*"Bizim əlaqələrimizin dərin kökləri var"*



### Prezident:

*"Yəhudi icmasının nümayəndələri ərazi bütövlüyümüz uğrunda bizimlə çiyin-çiyinə döyüşüblər"*





Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, İsrail Prezidentinin səfəri (İsrail Prezidentinin səfəri - red.) ikitərəfli münasibətlərimizi daha da gücləndirəcək. Hazırda ölkələrimiz arasında fəal siyasi dialoqun aparıldığını vurğulayan dövlətimizin başçısı qeyd edib: ”Budəfəki rəsmi səfər çərçivəsində ikitərəfli münasibətlərimizin gündəliyindəki mühüm məsələləri nəzərdən keçirmək üçün daha çox imkanımız oldu. Şübhəsiz ki, bu il Azərbaycanın İsraildə səfirliyinin açılması əlaqələrimizi yüksək səviyyəyə qaldıracaq və eyni zamanda, daha sıx qarşılıqlı fəaliyyət üçün geniş imkanlar yaradacaq.

Bəzi iqtisadi göstəricilər (Azərbaycanla İsrail arasında - red.) ticarət dövriyyəsinin 1,7 milyard ABŞ dollarından çox olduğunu göstərir ki, bu da mühüm rəqəmdir. Amma hesab edirəm ki, növbəti illərdə ticarət dövriyyəmizi şaxələndirməyə çalışmalıyıq. Planlaşdırılan birgə layihələrin reallaşdırılması nəticəsində ticarət dövriyyəsinin daha çox tarazlaşdırılacağına ümid etdiyini vurğulayan dövlətimizin başçısı bildirib: ”Bu, yalnız enerji amilindən asılı olmayacaq, baxmayaraq ki, Azərbaycan uzun illərdir İsrail üçün etibarlı xam neft tədarükçüsü hesab olunur. Bu, həm də enerji sahəsində sıx əməkdaşlığımızın olmasının göstəricisidir”. İsrail Prezidenti ilə, həmçinin planların, suvarma və əkinçilik sahələrində artıq görülmüş işlərin müzakirə olunduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: ”Biz İsrailin bu sahədə böyük uğurlarının olduğunu bilirik. Biz bu müsbət təcrübəni kənd təsərrüfatında məhsuldarlığı artırmaq və ixrac bazarımızı şaxələndirmək üçün tətbiq etmək istərdik”. Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, bu yaxınlarda əməkdaşlığımızı genişləndirməyə başladığımız sahələrdən biri də kibertəhlükəsizlik sahəsidir. Biz çox şadıq ki, hazırda bu sahədə çox fəal qarşılıqlı ünsiyyətə start verilib. Kibertəhlükəsizliyin hər bir ölkənin milli təhlükəsizliyinin mühüm tərkib hissəsini təşkil etdiyini vurğulayan dövlətimizin başçısı bildirib: ”Şübhəsiz ki, İsrail şirkətlərinin bu sahədə topladıqları böyük təcrübə bizim üçün də faydalı olacaqdır. Gənc nəslin nümayəndələrinə təlimlərin keçirilməsi və təhsil verilməsi məqsədlərimizə nail olmaq və bizi mövcud təhdidlərdən qorumaq üçün əsas amil olacaqdır. Bu gün biz, həmçinin ölkələrimiz arasında qarşılıqlı turist axını səviyyəsinin artırılması imkanlarını da müzakirə etdik. Hazırda (ölkələrimiz arasında - red.) həftədə cəmi 4 reys yerinə yetirilir. Fikrimcə, bu, kifayət deyil. Nümayəndə heyətlərimizin üzvlərinə uçuşların sayını yalnız mövsümi əsasda deyil, həm də daimi əsasda artırmaq üçün müvafiq göstərişlər verilib.”

Həmçinin İsraildən daha çox turist dəvət etmək üçün orada mövcud olan təqdimat imkanlarının araşdırılması və Azərbaycandakı yəhudi icmasının çoxəsrlik həyatı haqqında ətraflı məlumat təqdim edilməsi (İsrail vətəndaşlarına - red.) barədə göstəriş verildiyini bildirən dövlətimizin başçısı bunun (Yəhudi icması - red.) ölkəmiz üçün böyük sərvət olduğunu deyib.

”Azərbaycana səfər etmək mənim üçün və millətim üçün həyata keçən arzudur.” Bu sözləri İsrail Dövlətinin Prezidenti İsxak Hersoq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə mətbuata bəyanatında söyləyib. İsxak Hersoq bildirib ki, bu səfər İsrail xalqı üçün və Azərbaycan xalqı ilə İsrail xalqı arasında birgə əlaqələr baxımından böyük əhəmiyyət kəsb edir. Bizim əlaqələrimizin dərin kökləri var. ”Sülh, ümumi rifah, yaxşı işlərə dair birgə strateji baxışımızla birlikdə, yəhudilərlə müsəlmanlar arasında səmərəli, ədalətli, səmimi, dostcasına dialoq bizim arzulaya və nümayiş etdirə biləcəyimiz bir baxışdır”, - deyə İsrail Dövlətinin başçısı əlavə edib.





# Azərbaycanın və İsrailin birinci xanımları Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksində olublar

**Mayın 30-da Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və İsrail Dövlətinin birinci xanımı Mixal Hersoq Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksində olublar. AZƏRTAC xəbər verir ki, ziyarət zamanı kompleks və Qala kəndinin qədim tarixi barədə məlumat verilib.**

Bildirilib ki, Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğunda abidələrin qorunması və qoruğun daha da zənginləşdirilməsi üçün 2008-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə burada açıq səma altında ilk Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi yaradılıb. Muzey kompleksinin ərazisində ölkəmizə, xüsusilə də Qala kəndinə və Abşeron yarımadasına xas arxeoloji memarlıq abidələri toplanıb və bərpa olunub. Muzey kompleksində qədim yaşayış məskənləri, kurqanlar, digər memarlıq abidələri ilkin görkəmində olduğu kimi nümayiş etdirilir. Dünyanın açıq səma altında yaradılmış nadir muzeylərindən olan Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksində qədim evlər və məişətdə istifadə olunan əşyalar daha çox diqqət çəkir.

Qonağa Azərbaycanın ənənəvi sənət növləri olan dulusçuluq, dəmirçilik, xalçaçılıq və ipəkçilik barədə də məlumat verilib. Diqqətə çatdırılıb ki, keçmişdə Qala kəndində bir sıra sənət sahələri inkişaf edib. Bu ərazidə arxeoloji qazıntılar zamanı aşkar edilən saxsı məmulatlar da bədii cəhətdən çox maraqlıdır.

Kompleksdəki toy evi diqqəti xüsusilə cəlb edib. Xalça və döşəklərlə bəzədilmiş bu geniş otağın hər iki tərəfində qapının olması evin havasının təmizliyinə və sərinliyinə imkan yaradır.

Muzey kompleksindəki tacir evi haqqında məlumat verilərkən bildirilib ki, bu ev kəndin ilk ikimərtəbəli evlərindən biridir. Burada çörəkçilik adət-ənənəsi ilə də tanışlıq olub. Diqqətə çatdırılıb ki, Qala kəndinin sakinləri qədim zamanlardan heyvandarlıqla da məşğul olublar. Qala kəndində taxılçılığın çox geniş inkişaf etdiyi barədə məlumat verilib, əl dəyirmanı vasitəsilə unun hazırlanması prosesi nümayiş olunub.

"Tullantıdan sənətə" muzeyi ilə tanışlıq zamanı məlumat verilib ki, bu mədəniyyət ocağı 2015-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə "Təmiz Şəhər" ASC tərəfindən yaradılıb. Burada nümayiş olunan əsərlər insanların lazımsız hesab etdikləri tullantılardan hazırlanıb. Muzeydə müxtəlif ölkələrdən Azərbaycana dəvət olunmuş sənətkarlar tərəfindən tullantılardan yaradılmış əsərlər sərgilənir. Komplekslə tanışlıqdan sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və İsrailin birinci xanımı Mixal Hersoq çay süfrəsi arxasında söhbət etdilər.

# YAP Mərkəzi Aparatının rəhbəri ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri ilə görüşüb

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Çin Xalq Respublikasına (ÇXR) səfəri çərçivəsində mayın 29-da Çin Kommunist Partiyası (ÇKP) Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Liu Ciençao ilə görüş keçirilib.**

Nümayəndə heyətini salamlayan Liu Ciençao Çin ilə Azərbaycan arasında çoxşaxəli əlaqələrin inkişaf dinamikasının məmnunluq doğurduğunu vurğulayaraq qarşılıqlı faydalı əməkdaşlığın uğurla davam etdirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini söyləyib. Azərbaycanın ÇXR-in dostu və Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşı olduğunu bildirən Liu Ciençao iki ölkə arasında əməkdaşlığın dərinləşdirilməsi üçün geniş potensialın mövcud olduğunu qeyd edib. O, Çinin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində digər tərəfdaş ölkələrlə olduğu kimi, Azərbaycanla da əməkdaşlığın ikitərəfli münasibətlərin inkişafına, Avrasiyada genişmiqyaslı işbirliyi, inteqrasiya və sabitliyə xidmət etdiyini deyib.

ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında sıx təmasların olduğunu bildirərək qarşılıqlı səfərlərin təcrübə mübadiləsi və əməkdaşlığın genişləndirilməsi baxımından böyük önəm daşıdığını diqqətə çatdırıb. O, ÇKP-nin Yeni Azərbaycan Partiyası ilə əlaqələrin genişləndirilməsində maraqlı olduğunu söyləyərək YAP nümayəndə heyətinin səfərinin hakim partiyalar arasında dostluq münasibətlərinin daha da gücləndirilməsinə xidmət edəcəyinə əminliyini bildirib.







Dəvətə və qonaqpərvərliyə görə təşəkkürünü bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında münasibətlərin dinamik inkişaf etdiyini, sənaye, kənd təsərrüfatı, ticarət, turizm, nəqliyyat-logistika və digər sahələri əhatə edən əməkdaşlığın çoxşaxəli və qarşılıqlı faydalı xarakter daşıdığını bildirib. Ötən il Azərbaycan ilə Çin arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin tamam olduğunu xatırladan Tahir Budaqov ölkələrimizin bu müddət ərzində ikitərəfli və beynəlxalq platformalar çərçivəsində münasibətləri inkişaf etdirərək əhəmiyyətli nailiyyətlər qazandıqlarını qeyd edib: "Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan ilə Çin bir çox sahələrdə uğurla əməkdaşlıq edir".

Azərbaycanın möhtəşəm Qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlardan bəhs edən YAP Sədrinin müavini postmüharibə dövründə ölkəmizin təşəbbüslərinin bölgədə sülhə, sabitliyə və təhlükəsizliyə xidmət etdiyini bildirib. Azərbaycanın Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" layihəsini dəstəkləyən ilk ölkələrdən biri olduğunu diqqətə çatdıran Tahir Budaqov Zəngəzur dəhlizinin regional və beynəlxalq əhəmiyyətindən bəhs edib. O bildirib ki, dəhliz Azərbaycanın tranzit ölkə kimi potensialını daha da gücləndirəcək, bu geostrateji koridor vasitəsilə Şərq-Qərb istiqamətində beynəlxalq yükdaşımaların əhəmiyyətli dərəcədə artması regionda Azərbaycan və Çinin də fəal iştirakçısı olduğu yeni çoxtərəfli əməkdaşlıq platformasının formalaşmasını təmin edəcək.

YAP Sədrinin müavini Azərbaycan Prezidenti İlham Əliyev ilə ÇXR-in Sədri Si Cinpinin siyasi iradələrinə uyğun olaraq iki hakim partiya arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində mühüm addımların atıldığını vurğulayıb. Pandemiyadan sonra Çinə rəsmi səfərə dəvət edilən ilk nümayəndə heyətinin məhz Yeni Azərbaycan Partiyasından olmasının dostluq və tərəfdaşlıq nümunəsi kimi böyük məmnunluq doğurduğunu xüsusi qeyd edən Tahir Budaqov söyləyib ki, qarşılıqlı səfərlər partiyalararası münasibətlərin inkişafı üçün mühüm əhəmiyyət daşıyır: "Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyasının fəal dialoqu xalqlarımız arasında dostluq münasibətlərinin möhkəmlənməsinə, çoxşaxəli əməkdaşlığımızın dərinləşməsinə və bütövlükdə Azərbaycan-Çin münasibətlərinin inkişafına mühüm töhfələr verir".

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Hikmət Məmmədovun, partiyanın Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynovanın, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamovun, partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərovun və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin aparıcı məsləhətçisi Taleh Həsənzadənin də iştirak etdiyi görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub. Sonda qarşılıqlı olaraq hədiyyələr təqdim edilib.



# YAP nümayəndə heyəti Çinə səfər edib

**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdədir.**

Səfər çərçivəsində mayın 28-də YAP nümayəndə heyəti Çin Kommunist Partiyasının (ÇKP) Muzeyini ziyarət edib.

Muzeylə tanışlıq zamanı Çinin və ÇKP-nin tarixi haqqında ətraflı məlumat verilib.

Diqqətə çatdırılıb ki, muzeydə ölkənin və partiyanın tarixini əks etdirən müxtəlif eksponatlar toplanıb və qiymətli, nadir kolleksiya nümunələri, stendlər mövcuddur.

Sonra YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov xatirə kitabına təəssüratlarını və ürək sözlərini yazıb.

Daha sonra qarşılıqlı olaraq xatirə hədiyyələri təqdim edilib.

Həmin gün YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini, nazir müavini Çyan Xunşan arasında görüş keçirilib.

YAP nümayəndə heyətini salamlayan Çyan Xunşan 28 May - Müstəqillik Günü münasibətilə təbrikini çatdırıb, Azərbaycan xalqına və dövlətinə firavanlıq, əmin-amanlıq və yeni uğurlar arzu edib. Çyan Xunşan Azərbaycan-Çin münasibətlərinin dostluğa və tərəfdaşlığa əsaslandığını, çoxşaxəli əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyini vurğulayıb. O, Çin ilə Azərbaycanın iqtisadi, siyasi, mədəni, humanitar və digər sahələrdə əlaqələri genişləndirməkdə maraqlı olduqlarını bildirib. Milli maraqları və beynəlxalq hüquq normalarını əsas götürən, bərabərhüquqlu tərəfdaşlığa malik iki dost ölkənin bir-birinin suverenliyinə hörmət və ərazi bütövlüyünə dəstək ifadə etdiklərini söyləyən Çyan Xunşan qeyd edib ki, istər Azərbaycan, istərsə də Çin öz siyasəti ilə beynəlxalq birliyin layiqli və məsuliyyətli üzvü olduğunu sübuta yetirib.









Şöbə müdirinin müavini bildirib ki, ÇKP ilə YAP arasındakı məhsuldar dialoq çərçivəsində əlaqələrin genişləndirilməsi Azərbaycan-Çin münasibətlərinin də inkişafına önəmli töhfədir. ÇKP-nin geniş beynəlxalq əlaqələrə malik olduğunu söyləyən Çyan Xunşan YAP ilə əməkdaşlığın dərinləşdirilməsinə böyük diqqət göstərildiyini bildirib. O, qarşılıqlı səfərlərin partiyalar arasında əlaqələrin mövcud vəziyyətinin dəyərləndirilməsi və gələcək əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyətli olduğunu qeyd edib.

Dəvətə və qonaqpərvərliyə görə təşəkkürünü bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov vurğulayıb ki, bu gün Azərbaycan-Çin münasibətləri hər iki ölkənin liderlərinin siyasi iradəsi sayəsində dinamik inkişafa malikdir. İki ölkə arasında çoxşaxəli əlaqələrin mövcud olduğunu diqqətə çatdıran Tahir Budaqov qeyd edib ki, müxtəlif sahələri əhatə edən əməkdaşlığın dərinləşdirilməsi üçün əlverişli şərait və etibarlı zəmin mövcuddur. YAP Sədrinin müavini söyləyib ki, ərazilərinin bir hissəsi 30 ilə yaxın müddətdə işğal altında qalmış Azərbaycan beynəlxalq hüququn təməlində dayanan suverenlik və ərazi bütövlüyü prinsiplərinə hər zaman böyük önəm verib. Bu baxımdan, Azərbaycan beynəlxalq münasibətlər sisteminin subyekti olan ölkələrin, o cümlədən Çinin ərazi bütövlüyünə, eləcə də Vahid Çin prinsipinə dəstəyini daim ifadə edib və bu gün də eyni mövqedədir. Azərbaycanın 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbə qazanaraq ərazi bütövlüyünü təmin, tarixi ədaləti isə bərpa etməsindən bəhs edən Tahir Budaqov yeni geosiyasi reallıqların regional təhlükəsizlik və işbirliyi üçün mühüm imkanlar yaratdığını bildirib. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa-quruculuq işlərinin görüldüyünü diqqətə çatdıran YAP Mərkəzi Aparatının rəhbəri Çin şirkətlərinin bu prosesdə fəal iştirakına geniş imkanların olduğunu söyləyib.

Tahir Budaqov Azərbaycan-Çin münasibətlərinin inkişafında iki ölkənin hakim partiyalarının daimi təmaslarının və əməkdaşlıq əlaqələrinin mühüm rolu olduğunu diqqətə çatdırıb. O, qarşılıqlı səfərlərin partiyalararası əlaqələrin bütün istiqamətlərdə inkişafına təkan verəcəyinə əminliyini ifadə edib. YAP Sədrinin müavini bildirib ki, siyasi partiyalar olaraq dövlət başçılarının dostluq münasibətlərini, Azərbaycan ilə Çin arasında tərəfdaşlığı örnək götürərək əlaqələri daha da gücləndirməli, səmərəli, faydalı və məqsədyönlü birgə fəaliyyəti uğurla davam etdirməliyik.

Qeyd edək ki, YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinə partiyanın İdarə Heyətinin üzvü, Milli Məclisin Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Hikmət Məmmədov, YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin aparıcı məsləhətçisi Taleh Həsənzadə daxildir.



# Bir ürək, bir yumruq: AZƏRBAYCAN - TÜRKİYƏ

Sarsılmaz dostluq və qardaşlığa söykənən və uğurla davam etdirilən Türkiyə-Azərbaycan birliyi əsrlərdir ki, davam edir. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənib. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələrinin hərtərəfli inkişafı baxımından, həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır və dövlətlər arasındakı dostluq-qardaşlıq münasibətləri dünya üçün nümunəyə çevrilib. Dostluq və qardaşlığa söykənən Azərbaycan Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətdə qayıdışından sonra dövlətlərarası əlaqələrin artmasına, əməkdaşlığın genişlənməsinə xüsusi diqqət yetirilmişdir. "Bir millət, iki dövlət", - deyən Ulu Öndər Heydər Əliyevin dövlətlərarası yaratdığı qardaşlıq münasibətləri bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən çox yüksək səviyyədə davam etdirilir. Türkiyədə keçirilən prezident seçkilərinin ikinci turunda Rəcəb Tayyib Ərdoğan tam üstünlüklə qalib gələrək ölkənin 13-cü Prezidenti seçilməsi Türkiyə ilə yanaşı, həm də Azərbaycanın siyasi qələbəsi kimi səsləndi. Əlbəttə ki, son illərdə Azərbaycan-Türkiyə münasibətləri ən yüksək pilləyə - müttəfiqlik səviyyəsinə qədər yüksəlməsi mövcud əlaqələrin möhkəmliyinə, sarsılmazlığına əsaslanır. Seçkilər bir daha göstərdi ki, Türkiyə cəmiyyəti son dərəcə demokratdır, bu ölkənin vətəndaşları yüksək siyasi mədəniyyətə sahibdirlər.

Həm seçkilərin keçirilməsi prosesi, həm də onun nəticələri bizə deməyə əsas verir ki, qardaş ölkədə demokratiya, haqqədalət zəfər çaldı. Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana ünvanladığı təbrikində Türkiyə Respublikasının Prezidenti vəzifəsinə keçirilən seçkilərdə yenidən qazandığı qələbə münasibətilə səmimi təbrikini ifadə edib: "Milli iradənin təntənəsi olan səsvermənin nəticələri ölkənizin hərtərəfli inkişafı yolunda qətiyyətlə həyata keçirdiyiniz genişmiqyaslı siyasətə və əvəzsiz xidmətlərinizə verilən ən ali qiymətdir. Çağdaş dövrümüzün səhifələrinə qızıl hərflərlə həkk olunmuş fəaliyyətiniz Vətənə, xalqa, Türk elinə hədsiz sevginin, bağlılığın və sədaqətin bariz ifadəsidir. Son iyirmi il ərzində qardaş Türkiyə Respublikası Sizin liderliyiniz sayəsində böyük və şərəfli inkişaf yolu keçərək beynəlxalq aləmdə proseslərə həlledici təsir göstərən güc mərkəzinə çevrilmiş, söz sahibi olmuş, siyasi, iqtisadi, sənaye, hərbi, yeni texnologiyalar və digər sahələrdə mühüm nailiyyətlər əldə etmişdir. Sizin tarixi missiyanızın əsas qayəsini təşkil edən qüdrətli və nüfuzlu Türkiyə Respublikasının uğurları qardaş ölkə olaraq bizi də olduqca qürurlandırır".

Təbrikdə o da qeyd olunur ki, tarixən qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Sarsılmaz dostluq və qardaşlığımız, qarşılıqlı faydalı əməkdaşlığımız, birgə gerçəkləşdirdiyimiz irimiqyaslı layihələr strateji müttəfiqliyimizi səciyyələndirən mühüm amillər olmaqla yanaşı, eyni zamanda regional əməkdaşlığın, təhlükəsizliyin və sabitliyin onurğa sütununu təşkil edir. "Azərbaycanın öz torpaqlarının işğaldan azad olunması uğrunda apardığı mübarizədə şəxsən Sizin, qardaş Türkiyə dövləti və xalqının qəti, birmənalı siyasi və mənəvi dəstəyi xalqımız tərəfindən həmişə böyük minnətdarlıq hissi ilə xatırlanır", deyə dövlət başçısı bildirib: "Əminəm ki, xalqlarımızın zamanın sınaqlarından şərəflə çıxmış dostluğu və qardaşlığı, Azərbaycan-Türkiyə birliyi və müttəfiqliyi "Bir millət iki dövlət" və "Bir yumruq" fəlsəfələrinin ruhuna uyğun yüksələn xətt üzrə davam edəcək və daha da möhkəmlənəcəkdir".

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva instaqram hesabında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın prezident seçkilərində əldə etdiyi qələbə ilə bağlı paylaşımında deyilir: "Cənab Rəcəb Tayyib Ərdoğanı və əziz bacım Əminə xanımı qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Qoy xalqlarımızın qardaşlığı əbədi və sarsılmaz olsun! Bütün Türkiyə xalqına möhkəm cansağlığı, xoşbəxtlik və sülh arzu edirəm. Uca Allah Azərbaycanı və Türkiyəni qorusun!".

## "AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİNİN BU GÜN DÜNYADA BƏNZƏRİ YOXDUR"

Bu gün Türkiyə dünyanın ən qüdrətli dövlətlərindən birinə çevrilib. Türkiyə Cümhuriyyəti ötən müddət ərzində daha da güclənərək beynəlxalq aləmdə sabitliyin və təhlükəsizliyin simvoluna çevrilib. Qardaş ölkədə seçkilərin tam demokratik şəkildə keçirilməsi və Rəcəb Tayyib Ərdoğanın qalib gəlməsi bu ölkənin gələcək uğurlarını təmin edəcəkdir. Onun liderliyi ilə Türkiyə inkişaf yolunda daha yüksək zirvələr fəth edəcəkdir. Regionda yaşanan hadisələr Türkiyə və Azərbaycanın rolunu və önəmini bir daha artırıb. Beynəlxalq aləmdə böyük nüfuz sahibi olan Türkiyə-Azərbaycan birliyi sarsılmazdır. Azərbaycan Prezidenti çıxışlarının birində belə demişdir: "İftixar hissi ilə qeyd etmək istərdim ki, dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Əcdadlarımızın mənəvi mirası olan qardaşlığımız, birliyimiz və həmrəyliyimiz xalqlarımız üçün əsas yol istiqaməti, bölgə və dünya üçün mühüm təhlükəsizlik və sabitlik amilidir." Türkiyə-Azərbaycan əlaqələrini ən yüksək müttəfiqlik səviyyəsinə qaldıran Şuşa Bəyannaməsi əhəmiyyətli rola malikdir. Dostluq və qardaşlığa söykənən Azərbaycan Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir dövrün başlanğıcını qoydu: "Şuşa Bəyannaməsi ilə müttəfiqlik zirvəsinə ucalmış əlaqələrimizin həyatın bütün sahələrində, istər siyasət, iqtisadiyyat, enerji, nəqliyyat, mədəniyyət, təhsil, hərbi və digər sahələrdə özünü göstərməsi bizi çox sevindirir. Əminəm ki, "Bir millət iki dövlət" şüarını rəhbər tutan ölkələrimiz arasında müttəfiqlik münasibətləri birgə səylərimizlə bundan sonra da yüksələn xətlə və uğurla inkişaf etməyə davam edəcəkdir". Bu mühüm tarixi sənəd ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin təntənəsi oldu və dövlətlər arasında əməkdaşlığın strateji əhəmiyyət kəsb edən sahələrini əhatə edir.

## "BİZ DÜNYA MİQYASINDA, DÜNYA ÇAPINDA NADİR ƏMƏKDAŞLIQ, İŞ BİRLİYİ, MÜTTƏFİQLİK NÜMUNƏSİ GÖSTƏRİRİK"

Vətən müharibəsində qələbəmizdən sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfərləri qardaşlıq, dostluq mesajının daha bir təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Bizi birləşdirən bir çox amillər var, ilk növbədə, tarix, mədəniyyət, ortaq etnik köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın qardaşlığı bu birliyi təmin edib. Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk". Bu birliyin və qardaşlığın sarsılmaz nümunəsinin Vətən müharibəsində bir daha şahidi olduq. "Biz Azərbaycanın yanındayıq. Hadisələrə müdaxilə edənlər öndə bizi görəcəklər!", - söyləyən Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan əsl qardaşlıq nümunəsi göstərdi. Bu müharibə günləri bir daha göstərdi ki, dövlətlərarası münasibətlər həqiqətən də dostluğa, qardaşlığa söykənir. İkinci Qarabağ müharibəsi zamanı Türkiyə tərəfindən göstərilən dəstək hər kəsin sevincinə səbəb oldu. Heç kəsə sirr deyil ki, Türkiyə Ermənistan-Azərbaycan münaqişəsinin həlli işində daim Azərbaycana böyük dəstək göstərdi. Bu gün işğaldan azad olunan torpaqlarımızda Azərbaycan və Türkiyə bayraqları dalğalanır.

Azərbaycanla Türkiyənin ortaq köklərdən və dəyərlərdən güc alan dostluq və qardaşlıq münasibətləri böyük inkişaf yolu keçib. Bu gün bu münasibətlər ən yüksək zirvəyə - müttəfiqlik səviyyəsinə yüksəldilib.

*Nəzakət ƏLƏDDİNQIZI*

# YAP Sədrinin müavini Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsi sədrinin müavini ilə görüşüb

**Çin Xalq Respublikasında (ÇXR) səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti mayın 29-da Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsi sədrinin müavini Şöhrət Zakir ilə görüşüb.**







Şöhrət Zakir dost və tərəfdaş ölkələr olan Azərbaycan ilə Çin arasında münasibətlərin inkişafının daim diqqət mərkəzində olduğunu söyləyib. Müxtəlif səviyyələrdə həyata keçirilən səfərlərin əhəmiyyətindən bəhs edən sədr müavini ölkələrimizin bir-birinin milli maraqlarına və dövlətçilik mənafelərinə hörmət etdiyini vurğulayıb.

Azərbaycan ilə Çinin çoxşaxəli və genişmiqyaslı münasibətləri dərinləşdirməkdə maraqlı olduğunu bildirən komitə sədrinin müavini parlamentlərarası əməkdaşlığın önəmindən söz açıb. O, hər iki ölkənin qanunverici orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsinin Azərbaycan-Çin münasibətlərinin inkişafına mühüm töhfə verdiyini diqqətə çatdırıb.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan və Çinin qarşılıqlı faydalı işbirliyinə böyük önəm verdiklərini, ölkələrimiz arasında fəal siyasi dialoqun və beynəlxalq təşkilatlarda səmərəli əməkdaşlığın mövcud olduğunu söyləyib. Tahir Budaqov hər iki ölkənin dostluq və tərəfdaşlıq münasibətlərini birgə səylərlə daha da inkişaf etdirmək əzmində olduğunu diqqətə çatdırıb. 44 günlük Vətən müharibəsində Azərbaycanın möhtəşəm Qələbə qazanaraq yeni geostrateji reallıqlar yaratdığını söyləyən YAP Mərkəzi Aparatının rəhbəri hazırda regionda mövcud olan vəziyyət, azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri barədə ətraflı məlumat verib.

Siyasi partiyaların dövlətlərarası münasibətlərin inkişafında önəmli rola malik olduğunu söyləyən Tahir Budaqov Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlığın əhəmiyyətindən bəhs edib. O, hakim partiyaların həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin genişləndirilməsinə xüsusi önəm verdiyini bildirib.

Vurğulanıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin siyasi iradələrinə uyğun olaraq əməkdaşlığın genişləndirilməsinə xidmət edən addımların atılması ardıcıl uğurların əldə olunması üçün etibarlı zəmin yaradır və xalqlarımız, dövlətlərimiz üçün mühüm perspektivlər vəd edir. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

Qeyd edək ki, YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinə partiyanın İdarə Heyətinin üzvü, Milli Məclisin Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Hikmət Məmmədov, YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, partiyanın Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərov və Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin aparıcı məsləhətçisi Taleh Həsənzadə daxildir.

## Seçkidə əldə edilən qələbə ilə başlayan

# YENİ ERA

Türkiyə seçicisi öz ölkəsinin daha da qüdrətli olmasına, dünyada artmaqda olan dövlət imicinə, türk dünyasının tərəqqisinə, eləcə də, Azərbaycanla müttəfiqlik münasibətlərinin bundan sonra daha sürətli inkişafına, Türkiyə-Azərbaycan tandemi ilə ortaya çıxan yeni reallıqların möhkəmlənməsinə, daimiliyinə, türklərin birliyinə, maraqlarına səs verdi. Bununla da türk dünyasına qarşı düşmənlər tərəfindən işlənib-hazırlanan məkrli planlar, bəd niyyətlər puça çıxdı və türklərin birliyi, müttəfiqliyi, daha da qüdrətli olmaları naminə uzun illər boyunca aparılan doğru, düzgün siyasət, güclü, qətiyyətli liderin uğurlu, məqsədyönlü fəaliyyəti sayəsində qazanılan qələbə yeni bir eranın başlanmasını şərtləndirdi.

Qardaş ölkədə baş tutan prezident seçkisində cənab Rəcəb Tayyib Ərdoğanın parlaq qələbə qazanması, ümumilikdə türk dünyasının maraqlarına tamamilə uyğun olan geosiyasi vəziyyətin sabitliyinin qorunması, davamlılığının təmin olunması, ölkələrimizin bundan sonrakı inkişafı üçün əsaslı zəmin kimi qiymətləndirilir. Çünki bu qələbə, daha bir namizəd və hakimiyyətə iddialı olan CHP-li Kamal Kılıçdaroğlunun, Türkiyənin, eləcə də türkdilli dövlətlərin maraqlarına xidmət etməyən, düşmən mövqelərini dəstəkləyən layihələrinin, siyasətinin süqutu, onun timsalında türk dünyasına zərbə vurmaq istəyənlərin ümidlərinin belə puça çıxması, bundan sonra da tərəqqinin təmin olunmasına xidmət edəcək siyasətin, strategiyanın qələbəsi hesab olunur. Türklər məhz cənab Ərdoğanı seçməklə, ümumilikdə türk dünyasının işıqlı gələcəyinə, dünyada artan nüfuzuna, perspektivinə dəstək olduqlarını ifadə etdilər və heç şübhəsiz ki, bu seçim, bu dəstək düşmənlər üçün də layiqli cavab oldu. Daha dəqiq desək, Türkiyə seçiciləri öz doğru seçimləri ilə bütün dünyaya bəyan etdilər ki, türk dünyasının birliyinə, müttəfiqliyinə, gücünün, qüdrətinin, nüfuzunun artmasına mane olmaq istəyənlər buna nail ola bilməyəcəklər və inkişafımızın, tərəqqimizin davamı üçün yeni dövrün qarşısı alınmazdır.

Seçim tərəqqi, inkişaf və sabitlik yolu oldu və bununla da elə Kılıcdaroğlunun timsalında Türkiyəni təlatümlərə sürükləmək istəyən, nüfuzunu heçə endirmək istəyənlərə yerləri göstərildi. Türklərin iradəsi qarşısında düşmənlər yenə də diz çökməli oldular və bunun hələ başlanğıc olduğunu anladılar. Anladılar ki, seçicilər cənab Ərdoğanı seçməklə, türk millətinin uğurlu gələcəyinə səs verməklə, düşmənlərin bütün məkrli planlarına qarşı çıxdıqlarını bəyan etdilər və bundan sonra da eyni şəkildə tərəqqinin təminatında öz liderlərinə dəstək olacaqlarını bildirdilər. Bu isə o deməkdir ki, Türkiyə başda olmaqla, bütövlükdə türk dünyasının çiçəklənməsinə bundan sonra daha geniş spektrda yol açılıb və türklər daha uğurlu yeni yüzilliyə, yeni eraya qədəm qoyurlar.

Etiraf edilməlidir ki, cənab Ərdoğanın seçkidə qələbəsi bütövlükdə türk dünyasının qələbəsidir, hansıki, bu qələbə dostları sevindirir, düşmənləri tamamilə məyus edir. Bunun da səbəbləri hər kəsə bəllidir. Təbii ki, Türkiyənin son 20 ildə böyük, möhtəşəm bir yol keçərək təkcə regional deyil, həm də qlobal miqyasda güclü dövlətə çevrilməsi fonunda bu uğurlara imza atan cənab Ərdoğanın yenidən seçilməsi türklərə fərli münasibətdə olanlara fərqli də təsir bağışlamalıdır. Türk dünyasını birləşdirən və 200 milyondan çox insanın yaşadığı bir ölkədə keçirilən prezident seçkisində öz ölkəsini daim nailiyyətlərə, uğurlara, qələbələrə aparan, bütövlükdə türk dünyasının tərəqqisi üçün əlindən gələni edən və bunu bacaran bir liderin, Rəcəb Tayyib Ərdoğanın yenidən seçilməsi sözsüz ki, daha sürətli inkişafı, tərəqqini təmin edəcək yeni bir dövrün başlaması anlamına gəlir.

"Türkiyə qazandı, demokratiya qazandı!", deyə Ankarada prezident kompleksinə toplaşan vətəndaşlara müraciət edən cənab Ərdoğan açıq şəkildə bildirdi ki, qalib gələn tək o deyil, bütövlükdə türklər, türk dünyasıdır. O haqlıdır. Bəli, güclü, sabit, suveren olduğuna görə düşmən gözü çıxaran Türkiyə qalib gəldi və bu ölkə ilə bərabər türk dövlətləri qalib oldular. İstər xarici, istərsə də daxili siyasətdə müstəqil olmasına, milli maraqlarını güdməsinə, türk dövlətlərinin mənafelərini müdafiə etməsinə, birliyinə çalışmasına və buna nail olmasına görə İran, Ermənistan kimi bir çox ölkələri qıcıqlandıra bilən Türkiyə indi qalib durumdadır. Əgər seçkinin nəticəsi fərqli olsaydı, o zaman birinci sevinənlər içərisində ermənilər, iranlılar olacaqları halda, onların ardınca sevinəcək Qərb olacaqdı. Ona görə ki, İran və Ermənistan bölgədə Türkiyə kimi bir güclü dövlətin söz sahibi olmasını həzm edə bilmir. Ələlxüsus da ermənilərin az qala təsir dairəsində olan İran istəyər ki, Türkiyə nəinki zəifləsin, hətta tamamilə yox olsun, amma bu arzuları gözlərində qaldı. Nə İran ağlına gələni etmək, ağalıq sevdasına düşmək imkanı qazana bildi, nə də çirkin niyyətlərini gerçəkləşdirmək istəyən Ermənistan bir istəyinə nail ola bilmədi. Bu hələ qələbənin ilk addımlığında əl edilənlərdir və bundan daha böyük qalibiyyət qlobal səviyyədədir. Ona görə ki, qlobal miqyasda Türkiyə öz inkişafı, tərəqqisi, ələlxüsus da birliyi ilə bir çox ölkələrin gözünə ox kimi batır. Qərb özü də inkişaf etmiş, qüdrətli Türkiyəni arzulamır və bu ölkənin hansısa maraqlara deyil, öz milli maraqlarına uyğun siyasət yürütməsindən, siyasi iradəyə, qətiyyətə sahib rəhbərinin olmasından narahatlığı da başadüşüləndir.

Məsələ burasındadır ki, dünya bunu qəbul etsə də, etməsə də türk birliyi artıq heç də hesaba alınmayacaq bir qüvvə deyil və 200 milyondan çox insanın, eyni bir millətin nümayəndəsinin bir-birinə dəstək, dayaq olduğu, hər bir müstəvidə həmrəylik nümayiş etdirdiyi möhtəşəm bir gücdür, potensialdır. Bir qədər əvvəl, daha dəqiq desək, Türk Dövlətləri Təşkilatının yarandığı vaxtlarda söhbət daha çox siyasət, iqtisadiyyat, ticarət, mədəniyyət, turizm sahəsində əməkdaşlıqdan gedirdisə, artıq qardaş dövlətlərin rəhbərləri təhlükəsizlik və müdafiə sahəsində sıx əməkdaşlıq barədə məsələləri müzakirə edirlər. Sözsüz ki, öndə güclü, qüdrətli, dünyada söz sahibinə çevrilən Türkiyə dövləti olmasaydı bu birlikdən, bu əməkdaşlıqdan söhbət belə gedə bilməzdi. Deməli, bu gün həmin o güclü, qüdrətli Türkiyəyə səs verilməsi bu baxımdan çoxlarının kürkünə birə salıb və məhz ona görə əminliklə deyilir ki, Ərdoğanın qələbəsi ilə bütün türk dünyası qalib gəldi. Artıq dünya ölkələri yaxşıca qəbul edirlər ki, yaxın gələcəkdə türk dövlətləri arasında əməkdaşlığın gücləndirilməsi prosesinin, türk birliyi üçün yeni eranın başlandığının bilavasitə şahidi olacaqlar və bu uğurun təməli də elə bu qələbə ilə qoyuldu.

Öz taleyinin heç bir halda Qərbin və digər anti-Türkiyə qüvvələrinin əlində alətə çevrilməsinə razılaşmayan, buna imkan verilməsinə qəti etiraz edən türklər müdrikcəsinə bu dəfə də ölkələrinin taleyini, gələcəyini ən layiqli namizədə, ən təcrübəli siyasətçiyə, cənab Rəcəb Tayyib Ərdoğana həvalə etdilər. Bununla da Kılıcdaroğlu kimi alətə çevrilən bir Qərb oyunçusunun anti-Türkiyə oyunlarına son qoyuldu. Türkiyəni Qərbdən asılı dövlətə çevirmək məqsədi daşıyan seçki platforması ilə utanmadan meydana atılan həmin o Kılıcdaroğlu seçicilərin iradəsi ilə siyasət səhnəsindən uzaqlaşdırılmaqla, Qərbin arzuları da hələ aşkara belə çıxmamışdan basdırıldı. Qərbin xoşuna gəlmək, bununla da seçkidə dəstəyini əldə etmək üçün səsləndirdiyi anti-Azərbaycan ritorikası da Kamal Kılıcdaroğlunun özünə qaldı və onu yerin dibinə girəcək bir biabırçı, utancverici duruma saldı. Ermənistanın, İranın, bir sözlə, düşmənin dəyirmanına su tökmək niyyətini gizlətmədən siyasi mübarizəyə qatılan həmin adam sonda Türkiyə seçiciləri tərəfindən meydandan tamamilə uzaqlaşdırıldı. Bu isə onu deməyə əsas verir ki, Türkiyə vətəndaşları heç də anti-Azərbaycan ritorikasını qəbul etməyib və qardaşlıq münasibətlərimizi çox yüksək qiymətləndirir. Belə də olmalıdır, çünki əsrlər boyu biz sözün əsl mənasında bir millət, iki dövlət olaraq mövcud olmuşuq və qardaşlığımız əbədi, dönməz olub. Biz hər zaman, sevincli günlərimizdə də, kədərli günlərimizdə də bir-birimizin yanında olmuşuq. "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", ifadəsi də təsadüfi səslənməyib. Bunun tarixi kökləri dərindir və hələ ötən əsrin əvvəllərinə qədər gedib çıxır. Hələ 1918-ci ildə ermənilərin törətdikləri soyqırımdan tutmuş, zamanəmizə qədər, 44 günlük vətən müharibəsinə, Türkiyədə baş verən və böyük itgilərə səbəb olan zəlzələyə qədər bütün çətinliklərin öhdəsindən qardaşlığımız sayəsində gəlinib. Eyni zamanda, sevincimizi də bir yerdə bölüşmüşük və istər Zəfər Paradı olsun, istərsə də Şuşa Bəyannaməsi kimi bir sıra əlamətdar hadisələr bu reallığı təsdiq edən nümunələrdən yalnız bir neçəsidir. Seçkidə Ərdoğanın qələbəsinə Azərbaycan xalqının sevinci bu baxımdan tam başadüşüləndir və bu qələbə ilə Azərbaycan-Türkiyə qardaşlığının daha da möhkəmlənəcəyi tamamilə göz qabağındadır və qətiyyən təkzib edilə bilməz. Təkzib edilə bilməz ki, artıq türk dünyasının dövrü başlayır və Azərbaycan, Türkiyə, türk dünyasının digər dövlətləri çiyin-çiyinə yeni inteqrasiya dövrünə qədəm qoyurlar, hansı ki, bu da yeni eranın başlanması deməkdir.

***İnam Hacıyev***

# Biabırçılığın zirvəsi

Bu gün regionun bütün diqqəti Ermmənistan-Azərbaycan münasibətlərinin nə ilə nəticələnəcəyinə fokuslanıb. 44 günlük müharibənin nəticələrinə əsasən deyə bilərik ki, hansı platformada və hansı vasitəçinin iştirakından asılı olmayaraq sülhün yaradılması təşəbbüsü Azərbaycana aid olduğu kimi, şərtləri də rəsmi Bakı diqtə edir. Vaşinqtonda keçirilən görüşdə Ermənistan və Azərbaycanın XİN başçıları bəzi detallara aydınlıq gətirmək üçün bir həftəyə yaxın müzakirə apardılarsa, Brüsseldə Aİ-nin vasitəçiliyi ilə baş tutan görüşdə ölkələrin liderləri bir araya gəldilər. Hər iki görüşü məhsuldar adlandırmaq olsa da qənaətbəxş hesab etmək sadəcə, tezdir. Çünki, Ermənistanın rəhbərliyi ilə bərabər erməni cəmiyyəti də mövcud durumla barışmaq istəmirlər. Yalan maşınının cəmiyyət üzərində hansı fəsadlar yaratdığını ermənilər üzərində açıq şəkildə görmək olar. Qonşu ölkənin 20 faiz ərazisini işğal altında saxlayan, heç bir beynəlxalq sənədlərə, BMT-yə üzv ölkələrin hər birinin ərazi bütövlüyünü qoruyan norma və prinsiplərə əhəmiyyət verməyən ermənilər özlərini cəzasızlıq mühitində o qədər rahat hiss edirlər ki, bu günün reallığını dərk etməkdə çətinlik çəkirlər. Amma ölkələr arasında münasibətləri tənzimləyən və bu sistemi qoruyan beynəlxalq təşkilatları da unutmaq lazım deyil.



Düzdür, həmin təşkilatlar erməni vandalizminə, beynəlxalq sənədlərin çeynənməsinə göz yumdular və hələ də müəmma olaraq qalan 30 illik işğala tutarlı reaksiya vermədilər, erməni həyasızlığını həzm etdilər, amma Azərbaycanın qətiyyətli addımı sayəsində üzərlərinə götürdükləri ağır yükü çiyinlərindən ata bildilər. Azərbaycanın haqqını çətin də olsa tanıdılar. Bəli, bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti sayəsində oldu. Hərb meydanında olduğu kimi, danışıqlar masasında da Ermənistan və onun arxasındakıları "pat" vəziyyətində qoyan da Azərbaycanın rəhbəri idi. İki ildir ki, Ermənistanla Azərbaycan arasında danışıqlar gedir, demək istərdik. Amma daha dəqiq ifadə etsək, Azərbaycan döyüş meydanında olduğu kimi, masada da Ermənistanı sülhə məcburetmə fəaliyyətindədir. Qəribədir, Ermənistan 28 il Azərbaycanın təkidlərinə baxmayaraq torpaqlarımızı sülh yolu ilə qaytarmaq niyyətində olmadığını deyirdi, amma xalq və ordu birliyi, Ali Baş Komandanımızın isə qətiyyəti sayəsində düşmən ərazilərimizdən qovuldu. Bu gün isə kapitulyasiya aktına imza atmış Ermənistan rəhbərliyi sülhə gəlməkdə çətinlik çəkir. Paradoksdur, deyilmi?





Nəhayət tərəflər arasında Moskva görüşü də baş tutdu. Bəri başdan deyək ki, Azərbaycan tərəfinin tələbi də, təklifi də, istək və arzusu da dəyişməz olaraq qaldığı halda, sözdə bir, əməldə isə başqa fikirlərə sahib Ermənistan haqqında bunu demək xeyli çətindir. Moskvada da belə oldu. Ermənistan rəhbərliyi danışıqlardan əvvəl verdikləri açıqlama ilə, danışıqların gedişində söylədikləri arasında fərq yetərincədir. Buna baxmayaraq, bu ölkənin baş naziri onsuz da nəticəsi bəlli olan danışıqların vaxtını uzada və sülh müzakirələrinin bundan sonra da davam etdirməyə "həvəsli" olduğunu sübut etdi. Dəhliz termininindən bixəbər olan baş nazirdən, əslində, tutarlı bir arqument gözləməyə də dəyməz. Paşinyan Ermənistandan Xankəndiyə Laçın rayonu ərazisindən keçən və daha çox erməni əsilli Azərbaycan vətəndaşlarının istifadə etdiyi yolla bütün region ölkələrinin yük daşımalarında istifadə edəcəyi və Cənub-Şərqi Asiya ölkələri ilə qərbi Avropanı birləşdirən tarixi İpək Yolu üzərindəki Zəngəzur dəhlizini eyni tutması, statuslarını eyniləşdirməsi Paşinyanın dünya siyasətinə nabələdliyini sübut edir. Və Prezident İlham Əliyevin də Moskvada Aİİ-nin sammitində bütün iradları bu məsələnin üzərində qurulmuşdu. Azərbaycan Prezidentinin dediklərini olduğu kimi dərc edirik: "Bakı-Tbilisi-Qars dəmir yolu Avropaya, həmçinin Türkiyənin Aralıq dənizi limanlarına çıxışı təmin edir. Azərbaycan "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin fəal iştirakçısıdır. Biz, həmçinin ölkənin əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, həm də beynəlxalq dəmir yolu marşrutlarının bir hissəsi olacaq Zəngəzur dəhlizinin yaradılması təşəbbüsünü irəli sürmüşük. Azərbaycanda 8 beynəlxalq aeroport fəaliyyət göstərir. Onlardan ikisi işğaldan azad olunmuş torpaqlarda - Füzuli və Zəngilanda son iki ildə tikilib. Doqquzuncu beynəlxalq aeroport azad olunmuş Laçında tikilir və 2025-ci ildə istismara veriləcək. Ölkəmiz illik 500 min ton yük dövriyyəsi ilə regionda ən iri hava yük donanmasına malikdir. Azərbaycan iqtisadiyyatı müstəqilliyin demək olar ki, bütün dövrü ərzində dayanıqlılıq və artım nümayiş etdirir".

Prezidentimiz dünya birliyi - Şərqi Asiyadan Qərbi Avropaya qədər olan geniş coğrafi ərazi ilə region ölkələrinin inteqrasiyasını təmin edəcək böyük layihə təqdim edir, bu projeyə Ermənistanı da cəlb etmək, nəhayət Cənubi Qafqaza sülh və təhlükəsizlik gətirmək istəyir, irəvan isə bu xeyirxah addımı qərəz kimi anlayır, öz erməni xislətindən çıxış edərək yaxşı nə varsa əlahinə gedir. Baş nazir Nikol Paşinyanın, "Azərbaycan Prezidenti çıxışında son illər Ermənistana qarşı ərazi iddialarının irəli sürülməsinə əsas verən ifadədən istifadə etdi" deməsinə İlham Əliyevin cavabı da tutarlı və ermənilər üçün öldürücü oldu.

Prezident İlham Əliyev bildirdi ki, bizim belə iddialarımız yoxdur: "Mənim sözlərimdə ərazi iddialarının olmasını görmək üçün xüsusi canfəşanlıq etmək və ya güclü fantaziyaya malik olmaq lazımdır. Mənim istifadə etdiyim "dəhliz" sözünə gəldikdə, o zaman mən bu kəlməni dəqiq olaraq "Şimal-Cənub" dəhlizinə münasibətdə də işlətmişəm, bu söz elə həmin dəqiqliklə "Şərq-Qərb" dəhlizinə münasibətdə də istifadə olunur. "Dəhliz" sözü heç də kiminsə ərazisinə göz dikmək demək deyil. Bu, beynəlxalq termindir və düşünürəm, beynəlxalq terminologiya ilə tanış olan insanlar yəqin ki, ona bu gün Ermənistanın baş naziri kimi məna verməzdilər".

Görünür, Ermənistanla və ermənilərin indiki baş naziri ilə işimiz hələ bundan sonra çox olacaq. Çünki, bu xalqa dövlət, sərhəd, ərazi bütövlüyü, "qara" və "bağ"dan əmələ gəlmiş Qarabağın məhz Azərbaycana və azərbaycanlılara aid olmasını, öz yalanlarının özləri üçün yaratdığı böyük problemləri erməni cəmiyyətinə və onların ideoloqlarına dəfələrlə anlatmalıyıq. Bu da işə yaramasa "dəmir yumruq"u bir daha başımızın üzərinə qaldırmalı olacağıq. Bu, ermənilərin başa düşəcəyi, anlayacağı dildir.

Aİİ sammiti prezident İlham Əliyevlə şifahi "söz savaşına" başlamağa cəhd edən, amma nəticədə həm Azərbaycanda, həm də Ermənistan və Rusiyada özünü gülüş obyektinə çevirən Nikol Paşinyan üçün növbəti biabırçılığın zirvəsi oldu. Paşinyanın savadsız və səbatsız olduğunu, provakatorluğunu bilirdik, amma bu qədər də yox. Onun çıxışına Rusiya Prezidentinin ironik münasibəti də Ermənistan rəhbərinin və bütövlükdə ermənilərin mahiyyətini tam olaraq ortaya qoydu. Hələ görüşdən əvvəl Paşinyanın destruktiv addımlar atacağı gözlənilirdi. Bu barədə siyasətçilər dəqiq proqnozlar da verirdilər. Amma görüş başa çatar-çatmaz erməni silahlı birləşmələrinin Zəngilan rayonu istiqamətində diversiya aktı törətməyə cəhdi inandırıcı deyildi. Çünki bundan əvvəlki cəhdlərin ordumuz tərəfindən hansı formada qarşısının aldındığını hər kəs, o cümlədən Paşinyan da bilir. Belə olan halda maraqlı bir sual yaranır, sülhə bu qədər yaxınkən Ermənistan rəhbərliyi niyə qarşıdurmanı seçsin. Axı güc də yoxdur.

Görünür, Ermənistan reallıqla barışmaqda çətinlik çəkir, həqiqəti qəbul edə bilmir. Ermənistanın baş naziri özü üçün "uğurlu lokal qələbə" ilə nəticələnəcək hərbi təxribata əl atmaq qərarına gəlib. Bununla o, həm daxili siyasi mövqelərini gücləndirəcəyinə, həm də Kişinyov görüşündən əvvəl danışıqlar fonunu pozacağına ümid edir. Sülh danışıqlarını uzatmaq Ermənistanın məlum taktikasıdır. Ermənistanın diversant qrupu Azərbaycan hərbçilərini öldürməyi planlaşdırsa da, Dövlət Sərhəd Xidmətinin hərbçiləri tərəfindən vaxtında aşkar edilib. Diversiya baş tutsa, onlar Azərbaycan ərazisinin dərinliyində də təxribat törədib dinc vətəndaşları hədəf götürə bilərdilər. Amma bu olmadı, ermənilərin niyyəti boğazlarında qaldı.

**V.VƏLİYEV**

# Özünüməşğulluqdan sahibkarlığa...

**Hələ lap qədim dövrlərdən Azərbaycan ailəsi öz təsərrüfatını qurmaqla, birgə əmək sərf etməklə ailə büdcəsini formalaşdırmış, onun dayanıqlığını təmin etmişdir. Ailə dəyərlərimizin əsas amillərindən biri olan kollektiv əmək prosesində hər bir ailə üzvü bir-birinə yardım etməklə bu işin ənənəviləşməsinə şərait yaratmışdır. Məhz elə buna görə indi də kəndlərimizdə ərazilər var ki, onlar ozamankı ailə başçılarının-ata-babalarımızın adları ilə adlandırılır. Məsələn, "Nəbi yurdu", "Həsənin dərəsi", "Muxtarın düzü", "Həsənalı yaylağı", "Hüseynin almalığı", "Sadığın dəyirmanı", "İbrahimin baltası" kimi yüzlərlə yer adları indi də kəndlərimizdə olduğu kimi adlandırılır. Çünki zamanında bu yerlərdə atalar ailə təsərrüfatı yaratmış, əkinçilik, maldarlıq, heyvandarlıq və ya sənətkarlığın bir növü məşğul olmuş, bunu sonralar oğulları, nəvələri davam etdirmişlər ki, həmin yer adları da günümüzədək gəlib çıxmışdır. Kəndlərimizdə qədimdənqalma istehsal sahələri var ki, indi də həmin kəndlərdə ən yaxşı pendirin, şor-kərənin, balın, turşu və mürəbbələrin kimə məxsus olması barədə bir kəlmə soruşmaqla məlumat almaq olur.**



Tək əkinçilik və heyvandarlıq, milli mətbəx nümunələri deyil, həm də xalçaçılıq, kilim-palaz toxuma, müxtəlif naxışsalmalar, dulusçuluq, zərgərlik və saya biləcəyimiz onlarla sahələr var ki, onlar uzun illər boyu atadan-anadan oğula-qıza, oğul-qızdan övladlarına yadigar qalmaqla yaşadılıb. Odur ki, qədimdən bugünədək yaşadılan ailə təsərrüfatlarının müasir dövrümüzdə inkişaf etdirilməsi bir çox səbəblərdən təqdirəlayiqdir. Ən birincisi, insanların məşğulluğu, öz biznesini qurması, dövlətdən asılılığının azalması nöqteyi-nəzərindən özünüməşğulluq proqramı böyük əhəmiyyətə malikdir.

### Özünüməşğulluq-kiçik ailə təsərrüfatından sahibkarlığa gedən yol

Ailə biznesi ilə tanınmış korporasiyalar inkişaf edərək dünya iqtisadiyyatına təsir edən Rokfeller, Ford kimi maqnatlar böyümüşlər. Qərb iqtisadiyyatında ailə biznesi aparıcı rol oynayır. Məsələn, Böyük Britaniyada ölkə firmalarının 75%-i, ABŞ-da 90%-ni, Avropa İttifaqı ölkələrinin 85%-ni ailə biznesi şirkətləri təşkil edir. Nisbətən zəif də olsa, Rusiyada da ailə biznesi inkişaf edir.

Özünüməşğulluğun kiçik ailə biznesindən sahibkarlığa gedən yol olması barədə yüzlərlə nümunələr gətirmək olar. Bütün dünyada böyük sahibkarlıq subyektləri kiçik ailə təsərrüfatları üzərində qurulub. Beləliklə, söhbətimizin bu yerində belə ailələrdən bir neçəsinə qısa nəzər salmaq da maraqlı olardı.

Onlardan biri Müle ailəsidir. Fransada iplik əyiriciliyi sahəsində yaxşı tanınan bu ailənin adı kiçik Jerar Mülenin açdığı Auchan şəbəkəsi ilə bağlıdır. Jerar 1936-cı ildə Rube şəhərində doğulmuşdu. İkinci dünya müharibəsindən sonra Avropada hökm sürən durğunluq onların ailə biznesinə mənfi təsir göstərməsə də, Jerar başa düşür ki, təkcə iplik istehsalı ilə uzağa gedə bilməyəcək. Ona görə də kompaniyanın mağazalarını açır. Elə birinci kursda universiteti atır, özü də dəzgah arxasına keçir, bir dəfə isə ehtiyatsızlıqdan iki barmağını itirir, bundan sonra satış üzrə direktor təyin olunur. Kənar kadrların içəri buraxılmadığı bu ailə biznesində bütün gəlirlər bərabər payda bölünürdü. Gəlirlər isə artmaq bilmirdi. Axtarışlar Jerarı ABŞ-a aparıb çıxartdı. İlk dəfə o, burada supermarket modeli ilə tanış oldu. Mahiyyət isə sadə idi; xüsusi sırada tikilmiş mağazalar özünəxidmət üsulu ilə işləyirdi. J.Müle başa düşdü ki, supermarketlərin gələcəyi var. 1961-ci il iyulun 6-da Fransada ilk dəfə tətbiq edilən bu model, açılan ilk supermarket tezliklə Mülelərə böyük şöhrət, qazanc gətirdi. Auchan ticarət şəbəkəsi 1981-ci ildən başlayaraq Fransadan sonra İspaniya, ardınca da Rusiya, İtaliya, Portuqaliya, Lüksemburq, Polşa, Argentina, Macarıstan, Mərakeş, Çin, Tayvan, Malta, Ruminiya, Ukraynada özünə çox populyar hipermarketlər qurdu. Rusiyada "Aşan" adlanan şəbəkə indi Moskva, Sankt-Peterburq, Novosibirsk, Samara və s. vilayətlərdə xüsusilə genişlənməkdədir.

1996-cı ildən sonra Auchan Docks de France şəbəkəsini də aldıqdan sonra illik gəliri 33 milyard dolları ötməklə dünyada 1000-dən çox mağazaya sahib oldu. Təkcə mağazalarda işləyən personalın sayı 170 mindən artıqdır. İndi Müle ailəsi Avropada ən varlılar siyahısındadır. Getdikcə genişlənməkdə olan Auchan-a Leroy Merlin, St. Maclou, Decathon, Norauto, Kiabi, Atac və Elena tikinti materialları, idman, avtoaksessuar, geyim və ev üçün mallar mağazaları, supermarketlər şəbəkəsi, onlarla digər brendlər də daxil olmuşdur. Ailə isə ənənəsinə sadiqdir: yenə də bütün gəlirlər ailə üzvləri arasında bərabər bölünür.

2006-cı ildə 75 yaşlı Jerar Müle Auchan-nın qeyri-rəsmi rəhbərliyindən könüllü istefa verərək hüquqlarını özünün də təmsil olunduğu direktorlar şurasına təhvil verdi. Mülelər ailə mülkiyyətində qalan Auchan-a İPO alınması barədə heç düşünmürlər də, çünki buna onların heç ehtiyacı da yoxdur.

Mayer ailəsi 1871-ci ildə Almaniyanın Porzheim şəhərində dövrünün tanınmış numizmatika mütəxəssisi Bernard Henrih Mayer tərəfindən əsası qoyulmuş manufaktura bu gün bütün dünyada məşhurlaşan saatların, xatirə medolyonlarının, zərgərlik əşyalarının, pul qəpiklərinin və digər numizmatika nümunələrinin ən geniş çeşidli və yüksək keyfiyyətli istehsalçısına çevrilib. İndiyədək ilk yaradıcısının adı ilə fəaliyyətini davam etdirən "Bernard. H. Mayers Mint" şirkətinin məhsulları dünyanın 200-ə yaxın ölkəsində satılır.

Bu kimi ailə biznes və ticarət markaları da məşhurdur: Opal B, Siemens, Adidas, Samsung Electronics və sair.

Tissot saat markalarının tarixi də maraqlıdır. "Şarl Tisso və oğlu" firması 1853-cü ildə yaradıldı. Onlar nəinki firmaya rəhbərlik edir, həm də özləri saatlar düzəldirdilər. Bu kiçik istehsal əvvəlcə belə başladı: onlar ayrı-ayrı mexanizm və korpus hissələrini evlərində yığıb düzəltmək üçün kəndlilərə paylayır, sonra təhvil alırdılar. Keyfiyyət və dəqiqlik əsas şərt idi. Satışa yalnız yoxlamadan keçmiş saatlar çıxarılırdı. 1873-cü ildə atasının ölümündən sonra Şarl-Emil firmanın başına keçdi. O, bu zamana qədər artıq bir sıra ölkələri gəzərək beynində xeyli yeni ideya və bazar planları qurmuşdu. Hətta, Amerikaya belə gedib çıxmışdı. Özü olmayanda isə firmanın bütün maliyyə-təsərrüfat işlərinə arvadı başçılıq edirdi. Rusiyaya səfərinin nəticəsi isə bu oldu ki, firma Rusiya İmperator Sarayının rəsmi icazəsi ilə rus ordusu üçün saatlar hazırlamağa səlahiyyətli imtiyaz qazandı. Hazırda Tissot saatları dünyanın 140 ölkəsində satılır.

Ölkəmizdə özünüməşğulluğun qədim ənənələri olsa da, zamanın müxtəlif kəsiklərində yaşadığımız ictimai-iqtisadi formasiyalar bu ənənələri tənəzzülə uğratmışdır. Odur ki, 30 ildən artıq müstəqillik dövrünün son 20 ilində hazırlanıb həyata keçirilən çoxsaylı proqramlardan biri də özünüməşğulluqla bağlıdır. Hələlik bu proqram gənc sayılsa da, özünüməşğulluğa cəlbedilmələrin statistikası onun uğurlu gələcəyindən xəbər verir.

### Ölkəmizdə özünüməşğulluq uğurla həyata keçirilir

Özünüməşğulluq Azərbaycan Respublikasının "Məşğulluq haqqında" Qanununun 1.1.15 maddəsində qeyd olunduğu kimi, şəxsin müstəqil surətdə və yaxud dövlətin dəstəyi ilə özünü işlə təmin etməsi deməkdir. Aztəminatlı ailələrin sosial rifahını yüksəltmək məqsədilə sosial siyasət sahəsində özünüməşğulluq tədbirlərinə xüsusi yer ayrılır. Azərbaycan Respublikası Prezidentinin 7 aprel 2016-cı il tarixli "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamına əsasən özünüməşğulluq proqramı həyata keçirilir. Bu proqram çərçivəsində aztəminatlı ailələrə fərdi təsərrüfatlarının təməlini qoymaq və ya inkişaf etdirmək üçün dövlət vəsaiti hesabına ailəyə birbaşa natura şəklində mal, material və digər əmlakın verilməsi ilə (nağd vəsait olmamaq şərti ilə) dəstək göstərilir. Ailə təqdim etdiyi biznes plana uyğun olaraq istehsal və ya xidmət avadanlıqları ilə təmin edilir. Bu dövlət özünüməşğulluq proqramını digər ölkələrdəki təcrübədən fərqləndirən cəhətdir.

Özünüməşğulluq proqramı həmçinin alternativ sosial müdafiə tədbirləri ilə müqaisədə əhəmiyyətli üstünlükləri ilə fərqlənir. Belə ki, proqram eyni vaxta bir neçə makro məqsədlər istiqamətində paralel nəticələrin əldə edilməsinə imkan yaradır. Ümumilikdə isə özünüməşğulluq proqramının ailə büdcəsinin dayanıqlı gəlir mənbələri hesabına formalaşması, mikro və kiçik sahibkarlığın inkişafı, yeni iş yerlərinin yaradılması və işsizlik səviyyəsinin azaldılması, ictimai vəsaitlərin (dövlət vəsaitləri) xərclənməsində səmərəliliyin artırılması, yoxsulluq səviyyəsinin azaldılması, iqtisadiyyatda inkluzivliyin gücləndirilməsi kimi üstün tərəfləri vardır.

Özünüməşğulluq proqramı çərçivəsində aktivlərin paylanılmasında üstünlük verilən şəxslər vardır ki, bunlar da əsasən əhalinin həssas və sosial cəhətdən aztəminatlı qruplardır. Belə ki, qanunvericiliyə əsasən işsiz şəxslərin özünüməşğulluğunun təşkili zamanı ünvanlı dövlət sosial yardımı alan şəxslərə, əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara, bir ildən artıq işsiz kimi qeydiyyatda olanlara, pensiya yaşına iki ildən az qalmış şəxslərə, və cəzaçəkmə yerlərindən azad edilmiş işsiz şəxslərə üstünlük verilir. Bu qrupdan olan insanların özünüməşğulluq proqramı çərçivəsində şəxsi bizneslərinə start verərək maliyyə azadlığını təmin etməkləri layihə çərçivəsində nəzərdə tutulan hədəflərdən biridir. Bununla belə kimlər ki, Dövlət Məşğulluq Agentliyinin yerli orqanlarında (şəhər, rayon məşğulluq mərkəzlərində) işsiz və işaxtaran kimi qeydiyyata alınıb və özünüməşğulluq fəaliyyətini qurmaq üçün potensial imkanlara malikdirlər, özünüməşğulluq proqramından faydalana bilərlər.

Ölkəmizdə özünüməşğulluq proqramı uğurla həyata keçirilir. Belə ki, 2021-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən 77640 nəfər işsiz və işaxtaran şəxs işlə təmin edilib. 16232 şəxs özünüməşğulluq proqramına cəlb olunmaqla, onların seçdikləri biznes istiqamətləri üzrə aktivlərlə təminatı işləri aparılıb. Bu da proqramın icrasına başlandığı 2017-ci ilə nisbətən 13,6 dəfə çoxdur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dünya Bankının birgə icra etdiyi "Azərbaycanda məşğulluğa dəstək" layihəsi iştirakçılarının aktivlərlə təminatına da artıq başlanıb. Bu layihə özünüməşğulluq proqramının daha da genişlənməsinə mühüm dəstək olaraq, 22 min işsiz şəxsin özünüməşğulluq formasında kiçik biznes qurmasına dəstək olacaq. 2021-ci ildə Dövlət Məşğulluq Agentliyi tərəfindən əməkhaqqının birgə maliyyələşdirilməsi proqramına 491 nəfər, peşə hazırlığı kurslarına 988 nəfər, peşəyönümü məsləhət xidmətlərinə 1886 nəfər cəlb olunub. 3734 nəfərə isə işsizlikdən sığorta ödənişi verilib.

Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın ailələrinin, müharibə əlilləri və iştirakçılarının, erməni terrorundan zərər çəkən mülki şəxslərin, onların ailə üzvlərinin məşğulluğu da diqqətdə saxlanılır. Postmüharibə dövründə bu kateqoriyalara aid 10 minədək şəxsin məşğulluğuna dəstək göstərilib, o cümlədən 6 minədək şəxs özünüməşğulluq proqramına cəlb edilib, 4 minədək şəxs işlə təmin olunub. Təbii ki, əhalinin məşğulluq imkanlarının artırılması dövlətimizin sosial-iqtisadi siyasətində mühüm yer tutur. Odur ki, aktiv məşğulluq proqramlarının genişləndirilməsi 2022 və 2023-cü illərdə də əsas hədəflərdən olub.

### Biznesini qur, gəlirini artır

Bəli, özünüməşğulluq kiçik biznesin yaradılması, bunun da sayəsində ailə gəlirlərinin artması, nəticədə böyük biznesə keçilməsi deməkdir. Eyni zamanda, insanların dövlətdən asılılığının qarşısını alan vasitədir. Belə ki, əgər bir vətəndaşa dövlət tərəfindən 2022-ci ilin göstəricisi olaraq 64, 29 manat məbləğində ünvanlı dövlət sosial yardım düşürsə, özünüməşğulluqla bu rəqəm xeyli yüksəlmiş olur ki, bu da təbii, vətəndaş rifahı deməkdir. Bütün bunları nəzərə alan dövlətimiz elə bir proqram hazırlamışdır ki, yardıma ehtiyacı olan insanlar özünüməşğulluqla daha çox gəlir əldə etsinlər və daha yaxşı yaşaya bilsinlər. Bütün bunlar isə artıq öz bəhrəsini verməkdədir.

Statistikaya nəzər salaq. Ünvanlı dövlət sosial yardım alan ailələrin sayı 2017-ci ildə 132368, 2018-ci ildə 80193, 2019-cu ildə 43171, 2020-ci ildə 72170, 2021-ci ildə 77269, 2022-ci ildə isə 44716 olub. 2017-ci ildə 254233 qadın, 268847 kişi ünvanlı dövlət sosial yardım alırdısa, 2022-ci ildə bu rəqəm qadınlar üçün 102865, kişilər üçün 103442 səviyyəsinə enmişdir. Bu göstərici 2017-ci ildən tətbiqinə başlanan özünüməşğulluq proqramının uğurla həyata keçirilməsinin bariz nümunəsidir. Özünüməşğulluğa cəlb olunan vətəndaşların yaşadığı yerdən, iş qabiliyyətindən, bacarığından asılı olaraq onların məşğulluq səviyyəsi təyin olunur. Bu da o mənada faydasını verir ki, kəndli kənddə, şəhərli şəhərdə uyğun işlərə cəlb olunmaqla, daha doğrusu özləri fəaliyyət növünü seçməklə həm öz həyatını dəyişir, həm də insanlara kənd təsərrüfatı və digər məhsullari təqdim etməklə onların ehtiyacını ödəyir.

Məşğulluğunu təmin etmək istəyən insanlara dəstək də göstərilir. Belə dəstək riçaqlarından biri də "ABAD"- Ailə Biznesinə Asan Dəstəkdir. Ölkədə istehsal potensialının genişlənməsi və ailə bizneslərinin inkişaf etdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 sentyabr 2016-cı il tarixli Fərmanı ilə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ABAD" publik hüquqi şəxs yaradılıb. Dünyanın hər bir ölkəsində əksər böyük şirkətlərin yaradılması kiçik ailə biznesinin qurulması ilə mümkün olmuşdur. İlkin mərhələdə kiçik ailə təsərrüfatı kimi fəaliyyətə başlasalar da, daha sonra öz fəaliyyətlərini dövrün tələblərinə uyğunlaşdıran bu ailə biznesləri sonda böyük şirkətlərə, səhmdar cəmiyyətlərə, hətta iri korporasiyalara çevriliblər. "ABAD" layihəsinin məqsədi ailə təsərrüfatlarının bu inkişaf mərhələsinin uğurla keçirilməsinə yardım göstərmək, həmçinin rəqabətə dayanıqlı, keyfiyyətli və dünya standartlarına cavab verən məhsullar istehsal edib, satışını təşkil etməkdir.

Artıq bir neçə ildir ki, bazarlarımızdan ailə təsərrüfatlarının məhsullarını ala bilirik. Heyvandarlıq məhsulları, bal, balıq, toyuq, turşu və bir-birindən faydalı mürəbbələr, şirniyyatlar ailələrin birgə əməyinin keyfiyyətli nəticəsi kimi alıcılara çatdırılır. Bundan başqa saya biləcəyimiz onlarla fəaliyyət sahələri də vardır ki, onlar artıq öz sözlərini deməyi bacarıblar. Belə isə öz biznesini qurub, gəlirini, sosial rifahını artırmaqdan gözəl nə ola bilər ki?.. Hələ üstəlik dövlət vətəndaşa dəstək olursa, onu məşğulluğunu təmin etmək üçün müxtəlif mal, materialla, avadanlıq və ləvazimatlarla təmin edirsə, deməli, bu, dövlətin öz vətəndaşına qayğısıdır. Vətəndaş da işini elə yüksək səviyyədə qurmalıdır ki, dövlət qayğısına cavab verə bilsin. Eyni zamanda qədimdən gələn ailə dəyərlərimizi, bu dəyərlərin fonunda birgə əmək ənənələrini qoruyub yaşada bilsin.

Kim bilir, yuxarıda xarici ölkələrdən gətirdiyimiz nümunələrdə olduğu kimi, bizlərdən neçəmiz sabah öz məhsullarımızla məşhur sahibkar, biznesmen ola, dünya bazarına çıxa bilməyəcəyik? Bunu təbii ki, zaman göstərər. Lakin zaman o zaman müsbət olanları göstərir ki, insan ümidlə yaşayır, mübarizə edir, yorulmur və usanmır... Belə isə özünüməşğulluqdan sahibkarlığa doğru gedən yolda yolçu olanlara uğurlar diləyirik!

***Mətanət Məmmədova***

# Ulu Öndər Heydər Əliyevin zəngin irsi milli sərvətimizdir





Mövcud fakt və reallıqlar ondan ibarətdir ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra güclü, monolit dövlət yaratmaqla bərabər vətəndaş sülhünü, ümumxalq vəhdətini, milli və dini tolerantlığı təmin etdi, əhalinin sosial-iqtisadu durumunun yaxşılaşdırılması istiqamətində mütərəqqi addımlar atıldı, qanunlar qəbul olundu, Fərman və Sərəncamar imzalandı. Eyni zamanda, ölkədə siyasi sabitlik təmin edildi, zorakı dövlət çevrilişlərinin qarşısı alındı, qanunçuluq və hüquq qaydaları möhkəmləndirildi, insan hüquq və azadlıqlarının qorunması dövlətin başlıca vəzifəsinə çevrilməyə başladı. Faktlarda sübut edir ki, Azərbaycanın bütün sahələrində mövcud olmuş tənəzzül Ulu Öndər Heydər Əliyevin müdrikliyi, uzaqgörən siyasəti nəticəsində aradan qaldırılıb. Nəticədə, ölkəmiz dünyanın ən inkişaf etmiş dövlətləri sırasına ucalıb.

Ötən əsrin 90-cı illərin əvvəllərində Azərbaycan müstəqillik qazansa da, onu itirmək təhlükəsi ilə üzləşmişdi. Çünki hər bir sahədə hərc-mərclik, özbaşınalıq, xaos hökm sürürdü. Bu ağır vəziyyətdən istifadə edən Ermənistan və onun havadarları Azərbaycanın torpaqlarını işğal edirdi. Vəziyyət o qədər çətin və ağır həddə çatmışdır ki, ölkəmiz müstəqil dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Belə üzücü, ağır durumda xalqın köməyinə Ümummilli Liderimiz Heydər Əliyev çatdı. Belə bir şəraitdə 91 nəfər ziyalı yeni yaranacaq Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verməsi üçün 1992-ci il oktyabrın 16-da Ulu Öndər Heydər Əliyevə müraciət etdi. Ümummilli Lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. 1992-ci il noyabrın 21-də Naxçıvanda 550-dən çox nümayəndənin iştirakı ilə keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası yaradıldı və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. Ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası qısa müddət ərzində təşkilatlandı, xalqın dəstəyi ilə 1993-cü ildə hakimiyyətə gəldi. Xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev Azərbaycanı təhlükələrdən, parçalanmaq, yenidən hansısa ölkənin müstəmləkəsinə çevrilmək qorxusundan xilas etdi. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə müstəqil dövlətimiz çox böyük uğurlar qazandı və Azərbaycanın sürətli inkişafı həyata keçirildi.

### Bugünkü güclü və qüdrətli Azərbaycan Ulu Öndərimizin şah əsəridir

"Nə qədər ki, Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam"- deyən Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi siyasət ölkənin iqtisadi inkişaf potensialını hərəkətə gətirirdi, cəmiyyətin siyasi-hüquqi cəhətdən təkmilləşdirilməsinə, dövlətçilik ənənələrinin möhkəmləndirilməsinə nail olundu. Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi tədbirlər nəticəsində milli ordu yaradıldı, sosial-iqtisadi inkişafa, möhkəm əsaslara söykənən sabitliyə nail olundu. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Ümummilli Liderin rəhbərliyi ilə hazırlanan və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. Ulu öndər Heydər Əliyevin humanist siyasəti sayəsində 1995-ci ilin may ayında əfv və amnistiya təsisatları bərpa edildi. Buna paralel olaraq insan hüquqlarına riayət olunması üzərində parlament nəzarətini təşkil etmək üçün insan hüquqları müvəkkili təsisatı yaradıldı. Bütün bunlar isə ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmini və gücləndirilməsi istiqamətində əhəmiyyətli faktor kimi çıxış etdi. Ulu öndər Heydər Əliyev 22 fevral 1998-ci il tarixli xüsusi Fərman imzalayaraq Konstitusiyada öz əksini tapmış insan hüquqlarının həyata keçirilməsinin asanlaşdırılmasını hüquqi əsasda təsbit etmiş oldu. 1993-cü ildən Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə icrasına moratorium qoyulmuş ölüm hökmü 10 fevral 1998-ci il tarixli Qanunla tamamilə ləğv olundu. Bununla da, dövlətimizin insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə xüsusi önəm verildiyi bütün dünyaya nümayiş etdirildi.

### Uğurlar dönməz və davamlı olacaq

Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu müdrik siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti, Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Məhz Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz qazanıb, xalqın sosial-iqtisadi vəziyyəti daha da yaxşılaşıb, hüquqi, dövlət quruculuğu prosesi daha da sürətlənib, eləcə də Onun hərbi-siyasi Sərkərdəlik məharəti nəticəsində Müzəffər Azərbaycan ordusu 44 günlük Vətən müharibəsində Ermənistanın işğalı altında olmuş torpaqlarımız azad edilib və dövlət suverenliyimiz bərpa olunub. Parlaq qələbədən sonra keçmiş qaçqın və məcburi köçkünlərimiz öz doğma yurdlarına qayıdışı başlayıb. Cocuq Mərcanlıdan, Ağalı kəndindən başlayan qayıdış bütün Qarabağı əhatə etməkdədir. Vətən müharibəsi zamanı azad edilən ərazilərə səfər edib. Bu dəfə ölkə başçısı Kəlbəcər və Laşın rayonlarında olub, bir sıra açılışlarda iştirak edib və görülən işlərin vəziyyəti ilə tanış olub. Prezidentə Laçın şəhərinin Baş planı təqdim olunub.

Həmin gün Prezident İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşüb, evlərin açarlarını onlara təqdim edib. Görüşdə çıxış edən ölkə başçısı bir sıra məqamlara toxunub. O bildirib ki, cəmi 7-8 ay ərzində Laçının böyük hissəsi tamamilə yenidən qurulub. İlk 20 ailə artıq Laçında yerləşibdir və iyun ayının sonuna qədər əlavə bir çox ailələr gələcək. Birinci mərhələdə Laçında 4 minə yaxın insan məskunlaşacaqdır. Bütövlükdə Laçında 7-8 ay ərzində 700 bina inşa edilib, onlardan 620-si fərdi yaşayış binası, 9 çoxmənzilli bina və orada 144 mənzil hazırlanıbdır. Beləliklə, artıq 764 ailə Laçın şəhərində yaşaya bilərlər. Ölkə başçısı bildirdi ki, mənfur düşmən 30 il bizim şəhər və kəndlərimizi dağıdıb, viran qoyub. Azərbaycan isə cəmi iki il yarım ərzində artıq keçmiş köçkünləri öz doğma yurdlarına qaytarıb. Cari ilin sentyabr ayına qədər Zabux kəndi də tamamilə inşa edilib zabuxluların sərəncamına veriləcəkdir.

Bir sözlə, yaxın vaxtlarda insanlar öz doğma yurd və yuvalarına qayıdacaq, yenidən quracaq, yaradacaq və əbədi olaraq o bölgələrdə yaşayacaqlar.

### 2023-cü ilin "Heydər Əliyev ili" elan olunması nəinki Azərbaycan xalqının, ümumilikdə, bütün türk dünyasının ürəyincə oldu

Azərbaycan Respublikasının Prezidenti, Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyevin 2023-cü ilin "Heydər Əliyev ili" elan etməsi nəinki Azərbaycan xalqının ümumilikdə bütün türk dünyasının ürəyincə olan Sərəncam oldu. Sərəncama müvafiq olaraq türk ellərində Ulu Öndərimizə sevgi və ehtiramın, inam və etibarın nəticəsi olaraq tədbirlər keçirilir. Bu Sərəncam Ulu Öndər Heydər Əliyev Şəxsiyyətinə, Onun xalq və dövlət qarşısındakı tarixi xidmətlərinə yeni dəyərlər əsasında verilən qiymətdir. Sərəncamda qeyd edildiyi kimi, Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə, məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Münbit şəraitdən və imkanlardan bəhrələnən tarixçilər, araşdırmaçı jurnalistlər Ulu Öndər Heydər Əliyev fenomeninin dərinliklərini araşdırmaqla, yenidən tədqiqi etməklə cəmiyyətimizə, eləcə də dünya xalqlarına Dahi Öndərimiz haqqında maraqlı, diqqətçəkən məlumatlar çatdıracaqlar.

***İ.ƏLİYEV***

# Pulla alınan ölüm

*31 may Beynəlxalq Tütünsüz Gündür*

**Bu gün dünyada 2 milyarda yaxın insan siqaret çəkir. Ümumdünya Səhiyyə Təşkilatının verdiyi məlumata görə, tütün məmulatlarından istifadə hər il azı 5 milyon insanın həyatına son qoyur. 2030-cu ildə isə, bu rəqəmin 2 dəfə artacağı gözlənilir.**









### Dəhşət statistikası

Dünyada ən çox siqaret istehlak edən ölkə, kişilərin 60 %-inin, qadınların isə 8 %-inin siqaret çəkdiyi Çindir. Bu ölkədə təxminən 350 milyon siqaret çəkən yaşayır. Bununla əlaqədar olaraq hər il Çində 1 milyona yaxın insan siqaretin səbəb olduğu xəstəliklərdən həyatını itirir. Birləşmiş Ştatlarda 50 milyona yaxın adam siqaret çəkir. Ümumdünya Səhiyyə Təşkilatının hesablamalarına görə, narkotik və siqaretdən istifadədən ölüm hadisələrinin sayı 3-cü yerdə qərarlaşır.

Təəssüfedici haldır ki, bu gün dünyada siqaret çəkənlərin 20 faizini qadınlar təşkil edir.

Statistik məlumatlar Azərbaycan əhalisinin siqaret çəkməkdə heç də xarici ölkələrdən geri qalmadığını göstərir. Bu sıraya daxil olanların əksəriyyətini isə yeniyetmə və gənclər təşkil edir. Son vaxtlar qız və qadınlar arasında da siqaret çəkənlərin sayı artıb. Tədqiqatlara görə, ölkədə hər 10 nəfərdən biri siqaret çəkən hesab olunur. Beləliklə də, ümumilikdə 1 milyon nəfərə yaxın vətəndaşımızın canına ziyan vurduğu ortaya çıxır. Azərbaycanda siqaretin yaratdığı xəstəliklərdən ölənlərin sayı haqda dəqiq məlumatlar olmasa da, güman etmək olar ki, minlərlə vətəndaşımız məhz bu zərərli vərdişdən dünyasını dəyişir.

### Mehriban düşmən

Ümumdünya Səhiyyə Təşkilatı dünyada ən böyük sağlamlıq problemindən birinin siqaretlə bağlı olduğunu elan edib. Tədqiqatların nəticəsi göstərib ki, siqaretin yaratdığı problemlər, əsasən nikotinlə yox, onun tərkibindəki yanmayan maddələrlə bağlıdır.

Tütün tüstüsünün bir qullabında 4000-dək kimyəvi maddə var. Onların bir hissəsi zəhərli olur, digər hissəsi isə orqanizmdə toxuma səviyyəsində dəyişikliklər edir. Ən dağıdıcı təsiri isə qətran göstərir. Qətranın 70 faizi ağciyərlərə toplaşır.

Karbon monooksid (CO) isə siqaretin yanması prosesində daim yaranan qazdır. CO qanda oksigen dövranını pozur və hemoqlobinlə oksigendən daha tez reaksiyaya girir. Siqaret çəkənlərdə tez-tez rast gələnən təngnəfəslik də CO-nun zərərli təsirindəndir. Amma siqaretə aludəçiliyi məhz nikotin yaradır.

Siqaret tüstüsü insan orqanizmində yod çatışmazlığının güclənməsinə təkan verir. Tütünün tərkibindəki dağıdıcı maddə qalxanvarı vəzin yodla qidalanmasının qarşısını alır. Yod çatışmazlığı orqanizmdə mənfi kimyəvi maddələr dəyişikliyini sürətləndirir, qalxanvarı vəzin hüceyrə toxumalarında fəal şişlərin əmələ gəlməsinə təkan verir, tənəffüs, ağızburun nahiyələrində və udlaq sistemində ciddi pozuntulara səbəb olur.

Təkcə siqaret çəkən adam deyil, siqaret tüstüsü ilə nəfəs alan adamlar da risk qarşısında olurlar. Alimlər sübut ediblər ki, siqaret çəkən adamlarda rast gəlinən dəhşətli xəstəliklərə siqaret çəkməyən adamlarda da rast gəlinir ki, bu da onların siqaret çəkilən otaqda nəfəs alması ilə bağlıdır. Çünki çəkilən hər siqaretin 25 %-i onu çəkənin orqanizminə hopursa, 50%-i nəfəs alınan havada qalır və tənəffüs zamanı həmin yerdə olanların ciyərlərinə yol tapır. Digər 25% isə yanıb kül olur.

Sonuncu siqaretdən sonra 20 dəqiqə ərzində qan təzyiqi normal səviyyəyə çatır. Bir gündən sonra infarkt keçirmə şansı azalır, bir ildən sonra isə ürək xəstəliklərinin inkişaf etməsi riski siqaret çəkən adamla müqayisədə yarıya enir.

### Xərçəngə ən qısa yol

Tütün ağ ciyərlərdə xərçəng xəstəliyinin yaranmasının əsas səbəbkarı hesab edilir. Siqaret çəkmək habelə, ürək xəstəlikləri, iflic və xərçəng xəstəliklərinin digər formalarının yaranmasına gətirib çıxarır. Tütün tüstüsündəki 43 komponent xərçəngin yaranmasına gətirib çıxarır.

Amerika Xərçəng Cəmiyyətinin araşdırmalarına görə, ağ ciyərdə xərçəng xəstəliyinin yaranmasına 87 faiz siqaret çəkmək səbəb olur. Ağız boşluğu, qida borusu, böyrək, dalaq və mədəaltı vəzidə xərçəng xəstəliyi çox hallarda siqaret çəkmək nəticəsində əmələ gəlir. İnsanlar siqaretin tərkibində olan nikotinə getdikcə daha çox alışırlar. Nikotin alkoqol və kokain qədər güclü təsirə malikdir və asılılıq yaradan maddədir. Siqaretə aludəçiliyi məhz nikotin yaradır. Siqaret çəkənlərdə xərçəng xəstəliyinə yoluxma labüdlüyü, onun ölümə doğru riski və inkişaf sürəti çəkməyənlərə nisbətən 60 faizdən artıqdır.

Elmi araşdırmalara görə, 5 siqaretdə insanı öldürəcək həcmdə nikotin var. Hər siqareti çəkərkən insanın orqanizminə 1-2 milliqram nikotin gedir. Lakin tütünün tərkibində ən qorxulu maddə nikotin deyil. Onun tərkibində qətran, ammonyak, arsenik, aseton kimi dəhşətli maddələr var.

### Siqaretin səbəb olduğu xəstəliklərin tam olmayan siyahısı adamı dəhşətə gətirir:

1. Ürək xəstəlikləri - Siqaret çəkənlərin ürək xəstəliyinə tutulma riski çəkməyənlərə nisbətdə 4 qat daha çoxdur.

2. Qırtlaq xərçəngi - Gündə 25 ədəd siqaret çəkmək qırtlaq xərçənginə tutulma riskini 30 dəfə artırır.

3. Boğaz xərçəngi - Bu xəstəliyi 80% hallarda siqaret səbəb olur.

4. Mədə xərçəngi - Siqaret çəkənlərin mədə və ya bağırsaq xərçənginə tutulma riski çəkməyənlərdən 2 qat daha çoxdur.

5. Qaraciyər xərçəngi - Bu xəstəliyin 80%-i siqaretin təsirindən olur.

6. Menapoz - Siqaret çəkən qadınlarda vaxtından 5-10 il əvvəl menapoz baş verir. Bu da sümüklərin daha tez incəlməsinə və əriməsinə səbəb olur.

7. Anormal doğum - Gündə yalnız 5 ədəd siqaret çəkən hamilə bir qadının olduqca kiçik və sağlam olmayan bir körpə doğma riski son dərəcə yüksəkdir.

8. Şəkər xəstəliyi - Siqaret çəkmək bədənin insulin ifraz etmə qabiliyyətini azaldır. Bu da şəkər xəstəliyinə yol açır.

9. Qanqren - Ağciyərlər zəiflədiyi üçün, bədənə çox az oksigen yayılır. İnsan bədəni bu çox az miqdardakı oksigenlə daha vacib daxili orqanları təmin etmək məcburiyyətində qalır. Buna görə ürəyə ən uzaq orqanlar olan barmaq uclarından etibarən hüceyrələr sürətlə zəncirvari olaraq ölür.

10. Qida borusu xərçəngi - Bu xərçəngə tutulmağın səbəbi məhz siqaret çəkməkdir.

Siqaretin təkcə fiziki deyil, psixoloji problemlər yaratdığı da aşkar olunub. Elmi tədqiqatlara görə, siqaretdən istifadə edən şəxsin beyni informasiya qəbul etmə qabiliyyətini sürətlə itirir, reaksiya qabiliyyəti xeyli zəifləyir.

### Tütünsüz dünya iqtisadiyyatı: zərər, yoxsa qazanc?

Əhalisinin 8 milyarda çatdığı yer kürəsində tütün sektoru ən böyük sənaye sahələrindən biridir. İllik siqaret istehsalından hər birimizə təxminən 100 qutu siqaret düşür. Dünyada gün ərzində satış dəyəri təxminən 4 milyard dollar olan tütün ticarətindən illik qazanc 1 trilyona çatıb. Tütün dünya üzrə istifadə olunan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin 1 faizini təşkil etsə də, ən gəlirli sahələr arasında yer alır. Ancaq, bu iqtisadi artım bəşəriyyətin rifahına xidmət etmir.

Dünya Bankı siqaret səbəbli xəstəliklərin maddi nəticələrini, bu xəstəliklər üzündən ortaya çıxan işgücü qabiliyyətinin itirilməsini, yanğın ziyanlarını və siqaretə xərclənən pul miqdarını hesablayaraq bunların dünya iqtisadiyyatına 300 milyard dollardan çox ziyan vurduğunu ortaya qoydu. Lakin, bu sahədə vurulan ziyanın hamısını qeydə almaq mümkün olmadığından ekspertlər bu məbləğin ən azı 2-3 dəfə artıq ola biləcəyini qeyd edirlər.

Lakin nə qədər ki insanlar tütündən aralanmayıb, bu məhsulun ixrac olunmasındansa, ölkədə istehsalının təşkil edilməsi daha məqsədəuyğundur. Sovet dövründə respublikamızda tütünçülük güclü inkişaf edib, bu sahədən yaxşı gəlir əldə edilib. 1980-ci illərdə Azərbaycanda tütün istehsalı 60 min tona çatırdı.

Tütün iqtisadi əhəmiyyətinə görə Azərbaycanda pambıqçılıqdan sonra 2-ci texniki bitki sayılırdı. Lakin Sovet İttifaqının dağılmasından sonra pambıqçılıq, çayçılıq, üzümçülük, ipəkçilik kimi yüksək gəlir gətirən sahələrlə yanaşı tütünçülükdə də tənəzzül başladı. Son 25 ildə tütün istehsalı 50 min ton azalaraq illik 2-3 min tona düşdü.

Sovet İttifaqı dağılandan sonra Dünya Bankı ilə birlikdə aqrar sektorla bağlı birgə layihələrin işlənməsinə, treninqlər aparılmasına, kreditlər verilməsinə başlandı. Bu zaman tütünçülük sektoru arxa plana atıldı. Dünya Bankının ekspertləri səbəb kimi tütünün sağlamlığa zərərini göstərir və bunu siqaretə qarşı mübarizədə bir addım kimi qələmə verirdilər. Ona görə də, tütünçülüyə yardımlar, kreditlər ayrılmadı və bu sahədə tənəzzül başladı. Əvəzində ABŞ-da tütün istehsalı və ixracı xeyli artdı. Təbii ki bu sahədən götürülən gəlirlər də. Tütün artıq qlobal monopoliya sahəsinə çevrilmişdi.

Bunun nəticəsində ölkəmizdə yerli imkanlar ola-ola xeyli valyuta xaricə axır. Dövlət Gömrük Komitəsinin məlumatlarına görə, ildə 240 milyon dollarlıq tütün və tütün məmulatı idxal olunur. Təkcə bu rəqəm yerli tütünçülüyün tənəzzülü ilə hər il nə qədər böyük gəlirdən məhrum olduğumuzu anlamaq üçün kifayət edir.

Ekspertlər hesab edir ki, əgər bu sahəyə yetərli diqqət ayrılsa, yaxın perspektivdə hazırki istehsalı azı 10 dəfə artırmaq üçün real imkanlar vardır. İlk növbədə daxili bazarı tam təmin etmək, sonrakı mərhələdə ixrac etmək olar. Əlbəttə, mümkün qədər tütündən aralı durmaq lazımdır, amma əgər tütün istifadə ediriksə, onda öz məhsulumuzdan istifadə etsək yaxşıdır.

***Elçin Bayramlı***
***Sağlam Cəmiyyət Hərəkatının rəhbəri***

# Bir axşam taksidən düşüb

**Taksilərlə bağlı ötən yazımda (https://sesqazeti.az/news/articles/1061160.html) qeyd etdiyim məqamlar və bu sahədə vəziyyəti yaxşılaşdırmaq üçün irəli sürdüyüm təkliflər bəzi oxucular tərəfindən maraqla qarşılanıb və sosial şəbəkələrdə müzakirəyə çıxarılıb. Oxucularımız da bu məsələ ilə bağlı öz fikirlərini bildirib və bəzi təkliflər irəli sürüblər. Bu səbəbdən mövzunu davam etdirmək qərarına gəldik. Növbəti yazımda taksi fəaliyyətinin tənzimlənməsi üsulları və bu sahədə bəzi xarici ölkələrin təcrübəsindən danışacağıq.**

*II YAZİ*






Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb




Taksi sahəsində yaranmış vəziyyət hamıya məlumdur, burada həm müsbət, həm mənfi məqamlar var. Müsbət məqamlar taksilərin həm operativ, həm xeyli ucuz qiymətə xidmət, həm də maşınların komfortu ilə bağlıdır. Mənfi məqamlar isə sürücülərin istismarı, psixi problemi olan və lazımi sürücülük təcrübəsi olmayanların işə qəbul olunması, amansız rəqabət şəraitində yollarda qəzaların teztez baş verməsi ilə bağlıdır.

Deməli, bu sahədə rəqabətin olmasının müsbət məqamları çoxdur, lakin mənfi məqamların da aradan qaldırılmasında tənzimləmələrin həyata keçirilməsi vacibdir. Ona görə də tənzimləyici orqan şirkətlər qarşısında müvafiq tələblər və standartlar qoymalı, onların təmin olunmasına nəzarət etməlidir. Bunlar, sürücülərin peşəkarlığı və sağlamlığı, normal əmək hüquqlarının və qanuni iş saatlarının təmin olunması, avtomobillərin texniki vəziyyətinin normal olması kimi tələblər ola bilər. Əgər bunlar təmin edilsə, bu sahədə daha sağlam və qanuni rıəqabət getmiş olar, həm sürücülərin, həm də sərnilşinlərin maraqları təmin olunar.

İndiki vəziyyətdən isə burada daha çox qazanan tərəf aqreqator şirkətlərdir. Sərnişinlər üçün bu vəziyyət qiymət cəhətdən daha sərfəli olsa da, təhlükəsizlikləri cəhətdən problem var. Sürücülər isə, planı çıxarmaq və özləri üçün də bir qədər pul qazanmaq üçün həm fasiləsiz işləməyə, həm də maşını təhlükəli vəziyyətdə, yəni daha sürətlə sürməyə məcburdurlar. Düzdür, bəzi sürücülər bu yolla daha çox gəlir əldə edə bilir, lakin bu onların sağlamlığı və sərnişinlərin həyatına təhlükə bahasına əldə olunur.

Taksi fəaliyyəti müxtəlif ölkələrdə fərqli tənzimlənir. Lakin əksərində ümumi tələblər eynidir. Taksi sürücüləri müvafiq lisenziya alır, tibbi müayinədən keçir, avtomobili normal standartlara cavab verir. Şirkətlər də sürücülərin əmək və istirahət hüquqlarını təmin edir, onların normal gəlir əldə etmək imkanlarını yaradır. Beləliklə, hər bir tərəf üçün sərfəli olur.

Avropa ölkələrinin çoxunda, həmçinin qonşu Rusiyada, Gürcüstanda, Türkiyədə, Qazaxstanda... taksi sektorunda rəqabət mühiti güclüdür. Lakin ümumi qaydalar və tələblər var ki, şirkətlər haqsız rəqabətə girə bilmir, sürücülər istismar olunmur, sərnişinlərin rəyi və şikayəti mütləq nəzərə alınır. Əksər ölkələrdə taksi maşınları eyni rəngdə olur ki, bu da onların seçilməsini təmin edir. Sürücülərdən ən azı 3 illik sürücülük təcrübəsi tələb olunur. Maşınlar həm bayırı, həm də salonu çəkən kameralarla təchiz olunur.




Azərbaycanda da bunun kimi vahid standartların hazırlanmasına və tətbiqinə ehtiyac var. İlk növbədə, taksi sürücülərinin işə qəbulu ilə bağlı normalar təmin olunmalıdır, daha sonra avtomobillərin texniki vəziyyəti qənaətbəxş olmalıdır, maşınlar kameralarla və aydın görünən fərqlənmə nişanları ilə təmin olunmalıdır. Ən əsası, sürücülərin gün ərində 8-9 saatdan, həftədə 6 gündən artıq işləməsinə imkan verilməməlidir. Müştəriləri təhqir edən və onlara problem yaradan sürücülər cəzalanmalıdır. Müştəriyə dəyən zərərə görə şirkət kompensasiya ödəməlidir.

Əgər bu kimi məqamların daxil olduğu vahid standartlar yaradılsa, bu sahədə vəziyyət daha da yaxşılaşar. Hazırkı rəqabətli mühiti və qiymətləri saxlamaq lazımdır, sadəcə işin keyfiyyətini artırmağa, sürücülərin əmək hüquqlarının təmin olunmasına, sərnişinlərin təhükəsizliyinin qorunmasına ehtiyac var. Əgər bunlar təmin olunsa, taksi sahəsində hər tərəfin razı qaldığı ideal vəziyyət yaranar.

Hazırda Bakıda 30 min yaxın taksi maşını fəaliyyət göstərir. Bu gün taksi daşıyıcılarının 90%-i müxtəlif onlayn platformalar və ya aqreqatorlar üzərindən öz fəaliyyətini həyata keçirir. Qanunvericilik isə bu cür fəaliyyət növünü tənzimləmir.

Hazırda taksi fəaliyyəti ilə bağlı qanun layihəsi hazırlanır və güman edir ki, bu, taksi fəaliyyətində keyfiyyətin yüksəldilməsinə xidmət edəcək, lakin qiymətlərin artmasına səbəb olmayacaq.

***Elçin Bayramlı***



## Əsir düşərgəsi

**Lalə Mehralı**

**İnsanlar sosiallaşma ehtiyaclarını və real həyatdakı ünsiyyətlərini rəqəmsal platformalara köçürdükdən sonra dostluq, qohumluq əlaqələri də dəyişdi. Real həyatdakı münasibətlərimiz bir-bir sosial platformalara keçdi. Başqa sözlə desək, sosiallaşmaq da zamana ayaq uyduraraq rəqəmsallaşdı.**

İndi bütün dünya üzrə desək 4,62 milyard sosial şəbəkə istifadəçisi var, aktiv internet istifadəçisinin sayı isə 5 milyarda yaxınlaşıb. İstifadəçilərin sayı artdıqca insanların sosial şəbəkələrdə keçirdikləri vaxt da artır. İnsanlar orta hesabla gündə təxminən 2,5 saatını sosial platformalarda keçirirlər. Lakin bu, orta hesabla təyin edilmiş rəqəmdir, əksəriyyətimiz bu rəqəmin əslində doğru olmadığını öz asılılıq vərdişlərimiz sayəsində bilirik.

Sosial şəbəkələrdən istifadənin sürətlə artması bir növ təhrikedicidir. Hamı ora can atır. Hər gün yenisi istifadəyə verilən şəbəkələr texnoloji imkanları, üstünlükləri ilə bizi özünə əsir edir. Düşünün, üzv olduğunuz hər hansı bir sosial şəbəkənin ilk imkanları ilə indiki imkanları eynidir? Məsələn Feysbuka üzv olduğunuz ilk vaxtları xatırlayın. Mənim yadımdadır, 10 il əvvələdək çox sadə imkanları olan bir şəbəkə idi, indiki qədər cəlbedici və asılılıq yaradan deyildi. Bizi o şəbəkələrdən asılı vəziyyətə gətirənədək dayanmadan dəyişiklik edildi, yenilik edildi və sonunda bunu bacardılar. İndi hamımız onun və digər şəbəkələrin əsiriyik.

Məşhur misal var, dəyişməyən tək şey dəyişikliyin özüdür. Dəyişmək həmişə yaxşı istiqamətdə baş vermir. Yeniliklər həyatımızda yaratdığı rahatlıqla bərabər həm də öyrəşdiyimiz alışqanlıqlarımızı da əlimizdən alır. Getdikcə qəzet, kitab qoxusunu unuduruq, televiziya kanallarında proqram izləmirik, radionu açıb sevimli proqramımızı həvəslə dinləməyə hazırlaşmırıq, hansısa kinonun, verilişin efir vaxtını gözləmirik. Əlimizdə Yutub kimi nəhəng platformaya rahat giriş varsa, bunlara ehtiyac görmürük.

Beləcə, həyatımız asanlaşdıqca qəlizləşir. Bizə rahatlıq yaratdığını düşündüyümüz hər yenilik həyatımızdan bir zərrə qoparır. Əvəzində bizi özünün əngin dərinliklərinə həbs edən əsir düşərgələrinin - sosial şəbəkələrin sayı artır.

SƏS
31 may
2023-cü il

# Bağ evlərinin qiyməti artıb?



***Son illərdə artan insanların daha sakit ərazilərdə yaşamağa meyilli olduğu görülür. Ona görə də əlində pul olan şəxslərin həll yolu kimi villaların alınmasına tələbatın xeyli artdığı faktdır. Villa tipli evlərə tələbatın artmasının yeganə səbəbi sıxlıq deyil. Həmçinin, təbiətə daha yaxın olmaq istəyi və stressdən uzaq olmaqdır. Bəs, villa, yaxud bağ evi aldığımız zaman hansı məqamlara diqqət etməliyik?***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Geniş ərazidə tikilmiş, əsasən həyətyanı sahəli iri tikililər villa kimi tanınır. Ümumiyyətlə, şəhərdən kənarda və ya yaylıq ərazilərdə tikilən villalar 2-3 mərtəbəli olaraq layihələndirilir. Villalar əsasən bağ, hovuz, sauna və s. kimi üstünlüklərə sahibdir.

Villa alarkən nəzərə alınmalı olanlar bunlardır:

## Avtomobil dayanacağı

Əvvəlcə dayanacağa baxa bilərsiniz. Ev-



də nə qədər açıq və ya qapalı avtomobil dayanacağı var və bu zonaların eni vacibdir. Avtomobiliniz böyükdürsə və ya birdən çox avtomobil varsa, yerin sizin üçün uyğun olub-olmadığını yoxlamaq lazımdır.

## Bağ-həyət

Bağ-həyətə baxmaq üçün ilk yer darvazanın və ətrafındakı hasarın olması və hündürlüyüdür. Pişik və it kimi ev heyvanlarınız varsa bu məsələ çox vacibdir. Çəmənliyin və landşaftın vəziyyəti araşdırılmalıdır. Avtomatik suvarma sistemi və ya işıqlandırma sistemi haqqında məlumat əldə edilməlidir. Meyvə ağacları varsa, onların neçə yaşı olduğu bilinməlidir. Quyu suyu olduğu halda onun



şəxsi, yoxsa evlə birgə olduğu bilinməlidir. Xüsusilə yay dövründə bağın suvarılması quyu suyu ilə təmin edildikdə daha qənaətcil olacaq. Bağ baxım xərcləri soruşulmalıdır. Bağda hovuz varsa, onun təmizlənməsi, ölçüləri və dərinliyi haqqında məlumat alınmalıdır. Uşaqları olan insanların hovuz kənarında mühafizə sistemləri haqqında məlumat əldə etməsi vacibdir. Hovuzun baxımının necə təmin edildiyi və onun aylıq xərcləri öyrənilməlidir.

## Məkan və fasad

Villanın fasadı və yeri önəmlidir. Girişdə şüşə balkonun olması qış dövründə evin istiliyinin qorunması baxımından əhəmiyyətlidir. Qış bağçası varsa, onun istilik və soyutma sistemi haqqında məlumat əldə edilməlidir.

## Tikilərkən istifadə olunan tikinti materialları

Evdə etmək istədiyiniz təmir üçün villanın tikinti materialı önəmlidir.

## Kamin

Kamini bəzək və ya istilik məqsədləri üçün istifadə ediləbiləcəyi öyrənilməlidir. Əgər isitmə məqsədi daşıyırsa, kamin bacasında yanğın təhlükəsinə qarşı izolyasiyanın olub-olmaması, ona qulluq və təmizlik işləri



aparıldıqda bilinməlidir.

## İstilik sistemi

Villalarda istilik sistemləri müxtəlif növ ola bilər. Yanacaq kimi təbii qaz və elektrik kimi variantlar var. İstilik döşəmədən və ya kondisionerlərlə edilə bilər.

## Döşəmə

Döşəmə təbii daş, laminat, ağac, xalça ola bilər.

## Hamam

Hamam otağında paltaryuyan maşının yerləri xüsusilə yoxlanılmalıdır. Hamam şkaflarının kifayət olub-olmadığı öyrənilməlidir.

## Divar

Divarlar divar kağızı və ya boya ilə rənglənə bilər.

## Kombi

Kombiyə sonuncu dəfə nə vaxt qulluq edildiyini öyrənin.

**İqtisadçı ekspert Samir Heydərov:** "Son zamanlar bağ evlərinin qiymətinin kəskin artmasının səbəbi bir neçə amillə bağlıdır. Qiymət artımını qısa müddətli və uzun müddətli amillərə ayırmaq lazımdır. Qısa müddətli amillərə görə qiymət artımının səbəbi mövsümü xarakter daşıyır. Yay aylarında dincəlmək istəyən vətəndaşların sayının çoxalması və yay aylarında qış aylarına nisbətən turist axının çoxalması kirayə evlərin qiymətini artırdığı üçün bağ evlərinin qiymətinin artmasına səbəb olur.



Uzun müddətli səbəblərə gəldikdə isə regionda baş verən mürəkkəb geopolitik vəziyyət xüsusilə Rusiya-Ukrayna müharibəsi və s. amillər Azərbaycanı regionda sabitlik adasına çevirmişdir. Rusiya-Ukrayna müharibəsi başlayandan bu ölkələri tərk etmək istəyən insanların sayı artmışdır. Əgər Ukrayna vətəndaşları Qərbi Avropa və Türkiyəyə üz tutursa, Rusiya vətəndaşları Azərbaycan və Turkiyəyə axın edir. Onların içərisində bizim soydaşlarımız çoxluq təşkil edir.

Azərbaycan Respublikası Mərkəzi Bankının statistikasına əsasən təkcə 2022-ci ildə Rusiyadan Azərbycana köçürülən pul baratları 4.8 dəfə artaraq 623 milyondan 2 milyard 969 milyona çatmışdır. 2023- cü ilin birinci rübünə əsasən isə Azərbaycan köçürülən pul baratlarının ümumi həcmi 2022-ci ilin analoji dövrü ilə müqayisədə 84.2% artaraq 442.1 milyon ABŞ dolları olmuşdur.

Son aylar Azərbaycanda müvəqqəti yaşayış hüququnun yumuşaldılması bu axını daha da gücləndirmişdir. Belə ki, yeni dəyişikliklərdən birinə əsasən əcnəbi vətəndaşlar 100000 manat məbləğində daşınmaz əmlak müqabilində respublikada müvəqqəti yaşamaq hüququ əldə edirlər".

**Əmlak məsələləri üzrə ekspert Elnur Azadov:** "2020-ci ildə pandemiya dövründə Bakı-Abşeron ərazisində mənzil qiymətləri ciddi şəkildə artmışdı. İndiyədək belə artım hələ olmamışdı. Bu qapanma ilə bağlı idi ki, bir çox vətəndaşlar Bakı şəhəri ərazisindən



kənara çıxa bilmirdilər. İkinci səbəb bir çox vətəndaşlar tur paketləri almışdılar ki, xaricə getsinlər. Həmçinin, istirahət məqsədi ilə bağ evlərinə tələbat çoxaldı. Tələbat təklifdən çox olduğuna görə qiymətlər də ciddi artdı.

2021-ci ildə bir çox vətəndaşlar bağ evlərinə böyük sərmayələr qoyduqlarına görə aktivlik nisbətən zəif oldu. Yəni, qiymətlər qalxsa da, faktiki tələbat əvvəlki illə müqayisədə az oldu.

2022-ci ildə isə ölkəmizə Rusiya-Ukrayna müharibəsi nəticəsində böyük bir axın oldu. Bu da qiymətlərin ciddi şəkildə artmasına səbəb oldu.

Bu il isə pandemiya, qaçqın, yaxud miqrant yoxdur. Lakin bu il bağ evlərinin qiymətinin artmasının səbəbi Türkiyədə baş vermiş zəlzələdən sonra müşahidə olundu. Ən azı 10-15 faiz qiymət artımı baş verdi. Amma son sözü tələbat deyəcək. May aylarında isə bağ evlərində qiymətin artması normal haldır. Belə ki, vətəndaşlar evlərini kirayə çıxarır və bazardan geri dönüş gözləyirlər".

*Ayşən Vəli*

## ELAN

**"Təmir-Tikinti" Az NY" QSC elan**

"Təmir-Tikinti" Az NY" QSC 2022-ci il il ərzində cəmisi 24 000 manat gəlir əldə edilmişdir. Həmin məbləğin 4 581,50 manat cəmiyyətin ümumi xərcləri təşkil edir ki, bu xərclərə 2 800 manat əmək haqqı və ona bərabər tutulan xərclər, 602 manat sosial sığorta haqları, 90,61 manat bank xərci, 1 084 manat digər xərclər, 4.89 nağd qaydada bank hesablarından çıxarılmış pul vəsaiti üzrə tutulmuş sadələşdirilmiş vergi daxildir. Vergitutma məqsədləri üçün 19 418.50 manat hesablanmışdır ki, bundan da 14 563,88 manat mənfəət üzrə güzəşt çıxılmaqla 4 854,62 manat vergiyə cəlb edilmiş və 970. 93 manat ödənilməli mənfəət vergisi tutulmuşdur.Hər səhmə 1,24 manat olmaqla 15 378,16 manat səhmdarlara divident üçün ayrılmış,3060,41 manat cəmiyyətin gələcək fəaliyyəti üçün saxlanılmışdır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**